

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 123 (6806)

15 iyul 2023-cü il.
Qiymәti 60 qәpik

## "Azərbaycan: Qarabağda xristianlar üçün potensial qala"



3

# Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşü olub



3

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə iyulun 14-də Belçika Krallığına işgüzar səfərə gəlib.*

# Tehranın Afrikada "dost" axtarışı



4

## Tofiq Yaqublu xəyanətini etiraf edə bilərmi?



11

## "Qarabağda "erməni soyqırımı" olacağından danışmaq gülüncdür"



14

## Bir gündə yol qəzalarında 5 nəfər ölüb



16

## Gənclik təravətli unudulmaz səs



12

## Bəzi uşaqların yalan danışmasında günahkar KİMDİR?



11

# Son müşavirə: Uğurlar və hədəflər



## Prezident İlham Əliyev: "Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək"

***Prezident İlham Əliyevin sədrliyi ilə iyulun 11-də keçirilmiş cari ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çox mühüm məqamlara toxundu, vacib mesajlar verdi, görülmüş işlər, əldə olunan nəticələr haqqında geniş məlumat verdi, həmçinin qarşıda dayanan vəzifələri müəyyənləşdirdi və qeyd etdi ki, bu ilin altı ayında əsas istiqamət ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi oldu.***

Dövlət başçımızın qeyd etdiyi kimi, bütövlükdə altı ay ərzində ölkə iqtisadiyyatı inkişaf edib, qeyri-neft sektoru və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıb.

### "AZƏRBAYCANIN QEYRİ-NEFT SƏNAYESİ 6,5 FAİZ ARTIB VƏ QEYRİ-NEFT SEKTORU, ÜMUMİYYƏTLƏ, 3 FAİZDƏN ÇOX ARTIB"

Hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil olan iqtisadi inkişafa nəzər salsaq Azərbaycanın 2023-cü ilin altı ayında əldə etdiyi sosial-iqtisadi göstəricilərin qənaətbəxş olduğunu görərik.

Prezident İlham Əliyev müşavirədə onu da bildirib ki, qeyri-neft sənayesi 6,5 faiz qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır. Həmçinin, ölkəmizin maliyyə imkanları da genişlənib ki, bu da müvafiq sahədə aparılan islahatların uğurlu nəticəsi və şəffaflığın təmin edilməsi ilə bağlıdır. Ölkənin builki dövlət büdcəsi rekord həddə - 33 milyard manatdan çox səviyyəyə qalxıb. Bu da öz növbəsində həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edilməsinə, ilk növbədə azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verməyə və Azərbaycanın hərbi gücünü daha da artırmağa imkan verir. Bütövlükdə isə, yarım ildə 3 milyard manatdan çox vəsait əlavə edilib. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə, 1,1 milyard manat isə ölkənin hərbi potensialının güclənməsinə yönəldilib. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir.

Ölkə başçısı qeyd edib ki, mütləq rəqəmlərdə ölkəmizin xarici borcu cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Birinci altı ayda ümumi daxili məhsul 60 milyard manatdan çox təşkil etmişdir.

### GÖRÜLƏN İŞLƏR 5 İL ƏVVƏL, 2018-Cİ İL APRELİN 11-DƏ KEÇİRİLƏN PREZİDENT SEÇKİLƏRİNDƏ QALİB LİDERİMİZİN SÖZÜNÜN İMZASI QƏDƏR DƏYƏRLİYİNİN TƏSDİQİDİR

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun parlaq qələbəsi ilə başa çatdı. "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq",- dediyi bu sözləri 5 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində Ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi. Dövlət başçısının hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində torpaqlarımızın işğaldan azad olunması məsələsi prioritet idi. Və dövlət başçısı hər zaman bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə güclü Azərbaycan Ordusu öz sözünü deyəcək. Artıq bu gün işğaldan azad edilmiş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanır.

Dövlət başçısı müşavirədə onu da bildirdi ki, ölkə qarşısında duran bir çox vəzifələr var. İnfrastruktur layihələri təkcə Qarabağda, Şərqi Zəngəzurda yox, bütün ölkə üzrə həyata keçirilir.Sənaye inkişafı ilə bağlı və digər məsələlərlə bağlı çox böyük maliyyə resurslarımızın cəlb olunduğunu deyən dövlətimizin başçısı deyib: "Biz ayrılan hər bir vəsaitə böyük qənaətlə yanaşmalıyıq və şəffaflıq tam təmin edilməlidir - həm büdcə gəlirlərinin toplanmasında, həm də xərclənməsində. Qeyd etdiyim kimi, büdcəyə əlavə edildikdə ikinci əsas istiqamət hərbi gücümüzün artırılmasına istiqamətləndirilmişdir. Bu da təbiidir. Beynəlxalq vəziyyət bəllidir".

Bir sözlə, bu gün qələbəmizdən keçən cəmi iki il yarıma yaxın müddətdə ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur.

### "BU İLİN SONUNA QƏDƏR QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURA TƏQRİBƏN 12 MİLYARD MANATA QƏDƏR VƏSAİTİN XƏRCLƏNMƏSİ TƏMİN EDİLƏCƏKDİR"

Prezident İlham Əliyev müşavirədəki çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı görülən işlərə xüsusi diqqət yetirib. O, bildirib ki, artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtması təmin edilib. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər artıq burada bərpa olunan beş yaşayış məntəqəsində vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə, Böyük Qayıdış Proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. İşğaldan azad edilən ərazilərdəki şəhər və qəsəbələrin Baş planları hazırlanaraq təsdiqlənib, hazırda bir çox yerlərdə fəal inşaat işləri aparılır. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcəkdir. xüsusi olaraq qeyd edilməlidir ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir.

### "BEYNƏLXALQ HÜQUQA, BEYNƏLXALQ TƏŞKİLATLARIN QƏTNAMƏLƏRİNƏ BEL BAĞLAMAQ OLMAZ"

Bəli, dövlət başçısının dediyi kimi bu gün beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qətnamələrinə bel bağlamaq olmaz : «Mənim uzun illər dediyim sözlər bu gün əyani şəkildə özünü büruzə verir. Dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq işləmir. Beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə bel bağlamaq olmaz».

Ölkəmizin həmişə hüququn, o cümlədən beynəlxalq hüququn tərəfdarı olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib ki, biz həmişə ədalətin tərəfdarı idik, bu gün də ədalətin və beynəlxalq hüququn tərəfdarıyıq, beynəlxalq müstəvidə bu mövqeyi müdafiə edirik.

"Görülən bütün işlər bir kimsədən bir manat belə almadan Azərbaycan öz hesabına həyata keçirir", deyən dövlət başçısı müşavirədə bildirdi ki, beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qətnamələrinə bel bağlamaq olmaz: "Xarici şirkətləri dəvət etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Ancaq öz gücümüzə, öz istedadımıza güvənirik. Bunu mən xüsusilə qeyd etmək istəyirəm. Çünki adətən belə qanlı müharibələrdən, belə dağıntılardan sonra, - Qarabağ və Zəngəzurda dağıntıların dünyada bənzəri yoxdur, heç İkinci Dünya müharibəsində bu qədər dağıntılar olmamışdı, - donor konfransları, beynəlxalq təşkilatlar yığışır və bərpa planı icra edilir. İndi yenə də İkinci Dünya müharibəsinin tarixçəsinə nəzər salmaq kifayətdir. O vaxt Marşal planı tətbiq edilmişdir. Əgər Amerika Avropanı bərpa etmək üçün bu planı tətbiq etməsəydi, Avropa öz gücünə öz potensialını bəlkə də 50 ilə bərpa edə bilərdi. Digər münaqişələrlə bağlı beynəlxalq fondlar maliyyə yardımı göstərirlər. Bizə isə heç kim heç bir yardım göstərmir, nə işğal dövründə, nə də sonra. Hətta ölkələrin əksəriyyəti işğalı işğal kimi adlandırmaq istəmirdilər".

### "SİLAHLI QÜVVƏLƏRİMİZİN MODERNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ İŞLƏR PLAN ÜZRƏ GEDİR"

Prezident İlham Əliyev müşavirədə onu da vurğulayıb ki, iki istiqamət üzrə - hərbi potens və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaq. Dövlətimizin başçısı çıxışında Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlərin görüldüyünü də diqqətə çatdırdı. Bir daha şahid olduq ki, Azərbaycanın müdafiə və təhlükəsizlik məsələləri də daim diqqət mərkəzində saxlanılan əsas istiqamətlərdir. Güclü ordu bu gün dövlətlərin milli maraqlarının qorunmasında ən ciddi amillərdən biri kimi çıxış edir. Bu gün Azərbaycanın müdafiə və milli təhlükəsizlik xərcləri 6 milyard manatdan çoxdur. Bu, Ermənistanın dövlət büdcəsi xərclərinin 50 faizindən artıqdır. Təsadüfi deyil ki, biz regionun ən güclü ordusuna sahib ölkəsiyik. Bütün bunlar milli təhlükəsizliyimizin daha etibarlı qorunmasına imkan yaradır.

Ardı Səh. 3

# Son müşavirə: Uğurlar və hədəflər

**Əvvəli-Səh-2**

“Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlər plan üzrə gedir”. Bu barədə Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirib.

İkinci Qarabağ müharibəsindən sonra Silahlı Qüvvələrimizdə aparılan islahatların hələ başa çatmadığını qeyd edən dövlətimizin başçısı deyib: “Biz öz Silahlı Qüvvələrimizi ən qabaqcıl orduların səviyyəsinə çatdırmalıyıq, yəni, təbii ki, Azərbaycan miqyasını nəzərə almaq şərtilə. Struktur islahatları, idarəetmə və özünü müdafiəetmə qabiliyyəti nöqteyi-nəzərdən biz elə güc yaradırıq ki, yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin hiss edə bilək. Bu gün də belədir, amma daha böyük işlər də görülməlidir”.

Prezident deyib ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir, Azərbaycan xalqı bundan sonra da rahat yaşaya bilər və yaşamalıdır: ”Bizim qarşıda duran vəzifələrimizdən biri təbii ki, Ermənistanla olan münasibətlərimizdir. Burada, bu sahədə, yəni, nəticə təkcə bizdən asılı deyil. Halbuki bizim siyasətimiz Ermənistan tərəfini də vacib addımların atılmasına sövq edir. Ancaq, əlbəttə ki, bu, qarşılıqlı fəaliyyətdir”.

### “AZƏRBAYCANLA HƏDƏ-QORXU, ULTİMATUM DİLİ İLƏ HEÇ KİM DANIŞA BİLMƏZ”

”Bu gün dünyada güc amili ön plandadır və güclə hesablaşırlar, gücdən çəkinirlər. Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz”,-deyən dövlət başçısı onu da vurğulayıb ki, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi qoruya bilmişik və maraqlarımızı qoruya bilmişik, daha əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır: ”Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq”.

”Əgər keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək artıq Azərbaycan ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb”, - deyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu, müsbət hal kimi qiymətləndirilməlidir. İndi sıra gəlib çatıb ki, eyni sözlər kağız üzərində də öz təsdiqini tapsın, imzalar atılsın və münasibətlər yaradılsın: ”Bu gün dünyada güc amili ön plandadır və güclə hesablaşırlar, gücdən çəkinirlər. Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz”.

Müşavirədə dövlətimizin başçısı ekoloji məsələyə də toxunub və konkret tapşırıqlarını verib. Təbii ki, bu, kifayət qədər aktual məsələdir və ekoloji problemlər dünyanı ən çox narahat edən məqamlar sırasındadır. İşğal dövründə Ermənistanın Şərqi Zəngəzurda və Qarabağda törətdiyi ekoloji terror dəhşət saçırdı. Meşələr qırılırdı, çaylar çirkləndirilirdi. Həmin ərazilərdə 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən məhv edilib. Ermənistan bu gün də Azərbaycanla yaxın ərazilərində ekoloji tarazlığı pozur, bu sahədə beynəlxalq hüququn müddəalarına məhəl qoymur, çayları, təbiəti çirkləndirən müəssisələr tikir. Ekologiyanın təhlükə altına alınması ümumilikdə insanlıq əleyhinə yönəlmiş cinayətdir və Ermənistan bu işindən əl çəkməlidir.

Bəli, bütün bu uğurlu nailiyyətlər Azərbaycan Prezidenti İlham Əliyev cənablarının həyata keçirdiyi düşünülmüş siyasətin təzahürüdür və bu siyasətin mərkəzində təbii ki, Azərbaycan vətəndaşı dayanır. Çünki makroiqtisadi sabitlik təbii ki, ölkə iqtisadiyyatına təsir edir. Ölkədə həm minimum əməkhaqları, həm minimum pensiyalar müntəzəm olaraq artırılır. Bununla paralel olaraq manat sabitdir.

Göründüyü kimi, müşavirədə göstərilən bu rəqəmlər ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir.

Bəli, bu gün Azərbaycan imzası qədər verdiyi sözündə möhtəşəmdir və beynəlxalq aləmdə imzasının olması isə möhtəbərliyini sübut edir. Və göründüyü kimi, qürurverici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin qonşu dövlətlərlə monolit birliyə malikdir. Ümumilikdə, dövlət başçımızın 2023-cü ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki çıxışı göstərdi ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər, sahələr üzrə qarşıya qoyulan vəzifələr yüksək səviyyədə icra edilir və bundan sonra da Azərbaycan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirəcəkdir.

***RƏFİQƏ KAMALQIZI***



# Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşü olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə iyulun 14-də Belçika Krallığına işgüzar səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Avropa İttifaqı Şurasının mənzil-qərargahında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb. Birgə foto çəkdirilib. Daha sonra Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşü olub.



# “Azərbaycan: Qarabağda xristianlar üçün potensial qala”



ABŞ-ın Ermənistandakı səfiri həqiqəti söylədiyinə görə qınanmamalıdır. Bu barədə tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham “Azərbaycan: Qarabağda xristianlar üçün potensial qala” sərlövhəli məqaləsində yazıb.

Baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş məqalədə qeyd olunub ki, ABŞ-ın İrəvandakı səfiri Kristina Kuin Ermənistanın İctimai Televiziyasına müsahibəsində Qarabağdakı ermənilərin Azərbaycanın tərkibində təhlükəsiz şəkildə yaşaya biləcəklərini deyib: “Biz inanırıq və ümid edirik ki, bu mümkündür. Fikrimizcə, bütün tərəflər bunun üçün birgə səy göstərməlidirlər. Birləşmiş Ştatlar bunun düzgün yanaşma olduğuna əmindir və tərəfləri hüququ, təhlükəsizliyin qorunmasını təmin etməyə çağırır. Artıq sözügedən tərəflər bunu bəyan ediblər. İndi məsələnin düzgün yolunu tapmaq qalır”.

Tanınmış politoloq məsələyə münasibət bildirərkən qeyd edib ki, ABŞ-ın Ermənistandakı səfiri sözügedən bəyanata görə Ermənistandakı bəzi ekstremist dairələrin kəskin reaksiyası ilə üzləşib, lakin bu, amerikalı diplomatın söylədiklərinin həqiqət olduğunu dəyişmir. Bakıya etdiyi dörd səfər zamanı burada xristianların yaşayışına şəxsən şahid olduğunu vurğulayan müəllif öz dini ayinlərini həyata keçirməyə cəhd etdikləri üçün xristianları müntəzəm olaraq həbs edən və işgəncələrə məruz qoyan İran İslam Respublikası kimi ölkə ilə qonşuluqda yerləşən Azərbaycanı “xristianlar üçün qala” adlandırıb. Bakıda fəaliyyət göstərən rus pravoslav və katolik kilsələrini ziyarət etdiyini bildirən jurnalist sözün həqiqi mənasında dünyəvi və multikultural Azərbaycan cəmiyyətində müxtəlif sahələrdə uğur qazanan xristianların sayının az olmadığını diqqətə çatdırıb.

Müəllif iki xalq arasında sülh bərqərar olduqdan sonra ermənilərin Qarabağda azərbaycanlılarla birgə yaşamasının heç bir problem doğurmayacağına əminliyini ifadə edib və buna misal olaraq yəhudilərin, bəhailərin, pravoslavların, udilərin, katoliklərin və digər qeyri-müsəlmanların Azərbaycanda müsəlman əhali ilə dinc yanaşı yaşamasına diqqət çəkib, sözügedən həqiqəti aşkar surətdə dilə gətirən ABŞ-ın Ermənistandakı səfirinin qınanmasına ciddi etirazını bildirib. Məqaləni ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür:

https://foreignpolicyblogs.com/2023/07/12/azerbaijan-a-potential-bastion-for-christians-in-karabakh/.

# Madər Əliəsgər oğlu Musayev



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Tanınmış ictimai xadim, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Madər Əliəsgər oğlu Musayev 2023-cü il iyulun 14-də ömrünün 76-cı ilində vəfat etmişdir.

Madər Musayev 1947-ci il noyabrın 26-da Bakı şəhərində anadan olmuşdur. O, 1975–1982-ci illərdə Moskva Kooperativ İnstitutunun Bakı filialının sənaye əmtəəşünaslığı və ticarətin təşkili fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1964-cü ildə Bakı şəhərində ticarət sahəsində başlayan Madər Musayev 1995-ci ilədək bu sahədə müxtəlif vəzifələrdə çalışmış, iri ticarət mərkəzlərinə rəhbərlik etmiş, ticarətin təşkili və təkmilləşdirilməsi işində mühüm xidmətlər göstərmişdir. O, uzun illər ərzində tutduğu vəzifələrdən asılı olmayaraq yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirmiş, insanlara münasibətdə həssaslığı və dərin məsuliyyət hissi sayəsində böyük hörmət və rəğbət qazanmışdır.

Madər Musayevin ictimai fəaliyyəti də zəngin olmuşdur. O, XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin və I–VI çağırışlar Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və İntizam komissiyasının üzvü kimi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində nailiyyətlərin əldə olunmasında Madər Musayevin xidmətləri təqdirə layiqdir. O, həmçinin Türkiyə, Rusiya, İran, Pakistan, Səudiyyə Ərəbistanı, Tunis, Gürcüstan və Tacikistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvü olmaqla parlamentlərarası qarşılıqlı əməkdaşlığın inkişafına töhfələr vermişdir.

Madər Musayev milli dövlətçiliyə sədaqəti və xalqımızın adət-ənənələrinə xüsusi ehtiramı sayəsində çoxsaylı seçiciləri arasında həqiqi nüfuz sahibi olmuşdur. Xeyriyyəçilik fəaliyyəti onun ali insani keyfiyyətlərini xarakterizə edən başlıca cəhətlərdən idi.

Madər Musayevin ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı daim lazımınca qiymətləndirilmiş və o, uzunmüddətli səmərəli fəaliyyətinə görə müstəqil Azərbaycan Respublikasının ali mükafatlarına layiq görülərək, 2007-ci ildə “Şöhrət”, 2017-ci ildə “Şərəf” və 2022-ci ildə 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə təltif edilmişdir. Tanınmış ictimai xadim, xeyirxah və səmimi insan Madər Əliəsgər oğlu Musayevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Əli Əsədov**
**Sahibə Qafarova**
**Samir Nuriyev**
**Eldar Əzizov**
**Ədalət Vəliyev**
**Əhliman Əmiraslanov**
**Ziyafət Əsgərov**
**Hicran Hüseynova**
**Eldar İbrahimov**
**Eldar Quliyev**
**Ağalar Vəliyev**

# Tehranın Afrikada "dost" axtarışı

***Cənub qonşumuz İran çıxış yolu axtarır, itirilmiş mövqelərinin bərpasına çalışır. İndiyədək yaxın, uzaq qonşuları ilə güc dilində danışmaq yolunu tutan rəsmi Tehran "quyruğu"nun qapı arasında qaldığını görüb vəziyyəti ən azından əvvəlki məcraya salmaq üçün cəhdlər edir. Husilər üzərindən Səudiyyə Ərəbistanına, Livanın "Hizbullah" dini cərəyanı üzərindən İsrail və Türkiyəyə, HƏMAS ilə İsrailə, Suriya torpaqlarında Əsəd rejiminin dəstəyi ilə ABŞ-ın rəhbərliyindəki Qərb qüvvələrinə "buynuz" göstərmək iddiası deyəsən İranın işinə yaramadı, ya dam olla rejimi bu yükü qaldıra bilmədi.***



Neftdən gələn milyardları xarici əməliyyatlarda "yel dəyirmanı"nı dağıtmağa xərcləyən donkixot beyinli rejim ölkənin daxilindəki ac-yalavac insanların taleyini heç düşünmədi. İş o yerə çatdı ki, uydurma bəhanələrlə, həm də 30 milyonluq soydaşlarımızı qarşısına alaraq Azərbaycana əzələ nümayişinə qalxdı, ağzı daşa dəyəndə isə meydanda tək qaldığını gördü.

Qərbə diş qıcayan, qonşuları ilə düşmənçilik yolunu seçən molla rejimli İran bu dəfə Çini vasitəçiliyinə möhtac qaldı. Əlbəttə hər ölkənin bir siyasəti var, Pekin də bu vasitəçilikdən öz çıxarları üçün istifadə etməsə, özünə sərf edən variantları işə salmasa bu işə qoşulmaz, Qərb ölkələrini, xüsusən də ABŞ-ın "bostan"ına ayaq basmaz, özünü təhlükəyə atmazdı. Çin rəhbəri səudiyyəlilərlə İran barəsində danışıqlar aparmaq, iki ölkəni barışdırmaq üçün Ər-Riyada səfər edərkən bəlkə də danışıqların ölkəsi üçün nə qədər faydalı olacağını hesablamamışdı. Geri dönərkən Çin Xalq Respublikasının sədri Si Cinpinin əlində 40 milyardlıq bir ticarət müqaviləsi var idi. İnsafən İranla Səudiyyəni də sənəd üzərində barışdıra bilmişdi. Tehranın özünün düşmən hesab etdiyi ölkələrlə yenidən isti əlaqələr yaratmaq niyyəti bu gün də aktualdır

### Tehranın Afrika turnesi

İran prezidenti İbrahim Rəisi Keniya, Uqanda və Zimbabveyə səfər edib. Bu, İslam Respublikası Prezidentinin son on ildə Afrika qitəsi ölkələrinə ilk səfəri idi. Ağır iqtisadi sanksiyalar altında olan İran diplomatik təcriddən çıxmaq və məhdudlaşdırıcı tədbirlərin təsirlərini yumşaltmaq üçün əlaqələri şaxələndirməyə çalışır. Beləliklə, iranlılar Rusiya və Çinlə yanaşı ABŞ və İsrailin strateji rəqiblərinin də iştirak etdiyi Afrika uğrunda döyüşə qoşulublar. İslam Respublikasının Xarici İşlər Nazirliyi İbrahim Rəisinin Afrikaya səfərini elan edərək, missiyanın əsas məqsədini "iqtisadi diplomatiya" adlandırıb. 2022-ci ilin iyununda İranın Ticarətin İnkişafı Təşkilatının rəhbərliyi Afrika ilə ticarəti 2025-ci ilə qədər 5 milyard dollara çatdırmağı qarşısına məqsəd qoyub. İndi bu, təxminən 1,2 milyard dollardır.

Qərbin sanksiyaları şəraitində digər regionlarla əlaqələrin inkişafı İran üçün prioritet məsələdir. Keçən ay Prezident Raisi Latın Amerikasına səfər etdi, indi Afrikanın vaxtıdır. Digər məsələlərlə yanaşı, o, təkcə iqtisadi perspektivlərinə görə deyil, həm də iki ölkə - ABŞ və İsrail arasında qarşıdurmanın strateji bazalarından biri kimi Tehranı maraqlandırır.

Tehran da Rusiya və Çindən sonra bu bölgə ilə maraqlanan ölkələr sırasına qoşulmağa can atır. Üstəlik, İran mediası Pekinin qitədəki iqtisadi ekspansiyasını nümunə kimi görür. İran prezidenti İbrahim Rəisi turnesinə ən çətin ölkədən - Şərqi Afrikada ABŞ-ın əsas müttəfiqi rolunu oynayan Keniya ilə başlamaq qərarına gəlib. Buna baxmayaraq, İran lideri yüksək səviyyədə qəbul edilib. Prezident Vilyam Ruto təmtəraqlı təriflər səsləndirərək, İranı "dünyanın innovasiya mərkəzi" adlandırıb və ikitərəfli əməkdaşlığın "strateji əhəmiyyətini" vurğulayıb. Eyni zamanda, ABŞ-Keniya əlaqələrini nəzərə alsaq, Nayrobinin Tehranla münasibətləri buludsuz deyil. Bundan əlavə, İran vətəndaşları mütəmadi olaraq Keniyada casusluqda və İsrail vətəndaşlarına və qurumlarına qarşı terror aktları hazırlamaqda şübhəli bilinərək saxlanılır. Ona görə də Rəisi özünü siyasi bəyanatlar verməkdən saxlamalı olub və diqqətini iqtisadiyyata və ticarətə yönəldib, bunu on qat artıracağını vəd edib. 2022-ci ildə İranın Keniyaya ixracı 53,2 milyon dollar, idxalı isə 17,3 milyon dollar təşkil edib. 1997-ci ildən bəri ölkələr arasında ticarət dövriyyəsinin orta artımı 1,8% təşkil edir.

Rəisi Uqandada özünü daha inamlı hiss edib. Qeyd edək ki, iki ölkə arasındakı münasibətlər təkcə ticarətlə məhdudlaşmır, həm də hərbi-texniki sahəyə təsir göstərir. Uqanda həm də ABŞ-ın təhlükəsizlik müttəfiqi sayılsa da, İranın nüvə proqramının inkişafını həmişə dəstəkləyib. 1986-cı ildən ölkəyə rəhbərlik edən prezident Yoveri Museveni sağlığında üç dəfə müxtəlif İran liderlərini qəbul etməyi bacarıb. Eyni zamanda o, Tehrana rəğbətini heç vaxt gizlətməyib. Ona görə də Uqandada İran prezidentinin adi çıxışlarını etməyə imkanı çatırdı.

Turun son dayanacağı Zimbabvedir. Böyük Britaniya, Aİ və ABŞ-ın da sanksiyaları altında olan bu respublika İran prezidenti üçün "rahatlıq zonasına" çevrilib. Orada iranlı qonağı ailənin bir üzvü kimi qarşılayıblar. "Onu görəndə məni də görürsən. Məni görəndə onu da görürsən", – Zimbabve prezidenti Emmerson Mnanqaqva hava limanında iranlı qonağı qarşılayan həmvətənlərinə müraciət edərək deyib.

İki ölkənin nümayəndələri uzun müddətdir ki, Qərbin sanksiya siyasətinə qarşı vahid cəbhə kimi çıxış ediblər. Hələ 1979-cu ildə Zimbabve nümayəndə heyəti İranın yeni hakimiyyətini İslam inqilabının qələbəsi münasibətilə təbrik etmək üçün Tehrana gəlmişdi. 1996-cı ildə prezident Əli Əkbər Haşimi-Rəfsəncani hətta o zamankı Zimbabve prezidenti Robert Muqabenin toyunun fəxri qonağı olmuşdu. İran-Zimbabve əlaqələri kənd təsərrüfatı avadanlıqlarının tədarükü və zimbabveli tələbələrə təqaüdlərin ayrılmasından tutmuş, media və telekommunikasiya sahəsinə sərmayə qoyulmasına qədər geniş sahələri əhatə edir. Prezident Rəisinin səfəri zamanı tərəflər arasında 12 anlaşma memorandumu imzalanıb.

İbrahim Rəisinin Afrika səfərinin nəticələri ilk baxışda normalgörünür. Ancaq yadda saxlamalıyıq ki, bu, İranın bu səviyyəli nümayəndəsinin son on ildə regiona ilk səfəridir. 1980-ci illərin əvvəlindən 2013-cü ilə qədər hər bir İran prezidenti vəzifədə olduğu müddətdə ən azı iki dəfə Afrika ölkələrinə səfər edib. Ən fəal Mahmud Əhmədinejad olub, o, ümumilikdə 23 dəfə, o cümlədən üç dəfə Seneqala, iki dəfə Sudan, Əlcəzair və Qambiyaya səfər edib.

Kəskin dönüş onun varisi Həsən Ruhani tərəfindən edilib. O, diqqətini Qərb ölkələri ilə danışıqlara yönəldib və faktiki olaraq Afrika istiqamətindən imtina edib. O, bunu yalnız ABŞ-ın 2018-ci ildə nüvə sazişindən çıxmasından sonra, Qərb dünyası ilə tam hüquqlu əməkdaşlığa ümidlər puç olanda xatırlayıb. 2020-ci ilin oktyabrında İran Xarici İşlər Nazirliyinin Afrika Departamenti Afrika ilə ticarət və iqtisadi əlaqələrin gücləndirilməsinə yönəlmiş yeni strategiya hazırlayıb. Amma bütün bunlar ritorika səviyyəsində qalıb. Həsən Ruhani qitəyə heç vaxt səfər etməyib və Tehran prezident olduğu illərdə yalnız üç Afrika liderini qəbul edib.

İran və Səudiyyə Ərəbistanı arasındakı rəqabət Afrika ilə münasibətlərin dinamikasına da mənfi təsir göstərib. 2016-cı ildə Ər-Riyadın təzyiqi ilə İranın mühüm ticarət tərəfdaşları hesab edilən Afrika Buynuzu bölgəsinin üç ölkəsi - Sudan, Cibuti və Somali İslam Respublikası ilə əlaqələri kəsib.

İndi Səudiyyə-İran münasibətlərinin normallaşması və nüvə sazişi üzrə danışıqların dalana dirənməsi fonunda prezident Rəisi Afrika ölkələrinə əməkdaşlıq üçün daha praqmatik strategiya təklif etməklə itirilmiş vaxtı kompensasiya etmək niyyətindədir.

Bu günə qədər İranın diplomatik nümayəndəlikləri qitənin 54 ölkəsindən yalnız 21-də fəaliyyət göstərir. Ancaq yalnız bu rəqəmlərə güvənməyə dəyməz. İranın xeyriyyə, humanitar, mədəni, təhsil, dini, siyasi və digər qeyri-dövlət strukturları onilliklərdir ki, müxtəlif Afrika ölkələrində fəaliyyət göstərir. Onlar xüsusilə şiə azlıqlarına dəstək verməklə məşğuldurlar. Bundan əlavə, son illərdə İranla sıx bağlı olan Livan Hizbullah hərəkatı Qərbi Afrikada kəskin şəkildə güclənib. Livan diasporu vasitəsilə fəaliyyət göstərir, orada müxtəlif hesablamalara görə 200-300 min nəfər var.

Hizbullah agentləri tez-tez qaçaqmalçılıq və narkotik ticarətində ittiham olunurlar və təşkilatla əlaqəli bəzi sahibkarlar ABŞ sanksiyalarına və viza məhdudiyyətlərinə məruz qalıblar. "Hizbullah"la paralel olaraq, İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) birlikləri də Afrikada fəaliyyət göstərir və xaricdəki əməliyyatlar, ilk növbədə "Qüds" xüsusi təyinatlılarıdır. 2020-ci ilin sonunda İranın Tasnim xəbər agentliyi Əl-Qüdsün "strateji dərinliyə" nail olmaq üçün Afrika ölkələrində əməliyyatlar sahəsini genişləndirəcəyini bildirib.

Səudiyyə Ərəbistanı ilə münasibətlərin normallaşmasından sonra iranlılar digər ərəb ölkələri ilə əlaqələri bərpa etməyə başlayıblar, əvvəllər onlarla münasibətləri sadə adlandırmaq olmazdı. Əgər Sudanla "soyuq dövr" cəmi bir neçə il davam edibsə, İslam inqilabından sonra Mərakeş və Misirlə münasibətlər yaxşılaşmayıb. Bu ölkələrin hər ikisi İranı tərk etməyə məcbur olan Şah Məhəmməd Rza Pəhləvini qəbul edir. Qaçaq şahı hava limanında şəxsən qarşılayan Mərakeş kralı II Həsən Ayətullah Xomeynini bidətçi adlandırıb. Bu ölkələrin İsraillə diplomatik əlaqələr qurması soyuqluğu daha da artırıb.

Buna baxmayaraq, indi Tehran keçmişə addım ataraq praqmatik davranaraq Rabat və Qahirəyə yaxınlaşmaq qərarına gəlib. Lakin İranın "Hizbullah" vasitəsi ilə Rabatın müharibə apardığı Qərbi Səhranın Qurtuluş Xalq Cəbhəsinə hərbi-texniki, maliyyə və maddi-texniki yardım göstərdiyini nəzərə alsaq, Mərakeşlə əlaqələr yaratmaq o qədər də asan olmayacaq. Mərakeş İranı şiə prozelitizmində və Qərbi Səhranın müstəqilliyinə dəstək verməkdə ittiham edərək, 2009 və 2018-ci illərdə iki dəfə İranla əlaqələri kəsib. Hizbullahın Afrikadakı fəaliyyətindən və digər regional liderlərdən narazıdır. Buna baxmayaraq, İran iqtisadiyyatı kəskin döngələrdən keçməyə çalışır, bəzən dalana dirənir.

***V.VƏLİYEV***

# Böyük Qayıdış: icra olunan genişmiqyaslı layihələr

*Prezident İlham Əliyev: "Bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik"*

***Azərbaycanda proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf tam təmin edilir və bir çox sosial layihələr davamlı olaraq icra olunur. Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara və yeni dövrün reallıqlarına uyğun həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda həyatın bütün sahələrində tərəqqi əldə olunub. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olan və xalqın etimadını doğruldan Cənab İlham Əliyev Prezidentliyi dövründə Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Verdiyi bütün vədlərə sadiq qalaraq, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Cənab İlham Əliyev xalqının alternativsiz lideri olduğunu öz fəaliyyəti ilə sübuta yetirib. Xalqın taleyüklü məsələləri dövlət başçımız tərəfindən həllini tapır. Qarabağın abadlaşması və yenidən qurulması istiqamətində irimiqyaslı layihələr reallaşdırılır, islahatlar həyata keçirilir.***

Bildiyimiz kimi, yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin məlum Sərəncamı ilə ”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq edilmişdir. Bu prioritetlərə söykənən Azərbaycan Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda əks olunmuş ”İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış” Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə dövlət başçısının 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edilib. Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir. Dövlət Proqramında əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər prioritet olaraq əksini tapıb. ”Azad edilmiş bölgələrdə biz hər şeyi planlı şəkildə edirik və ən yüksək standartlar orada tətbiq edilir”. Bu fikirləri Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə deyib. ”Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik”, - deyən dövlətimizin başçısı əlavə edib ki, iki məktəb istisna olmaqla, bütün qalan infrastruktur, inşaat işləri Azərbaycan büdcəsi hesabına həyata keçirilir və Azərbaycan dövlət şirkətləri tərəfindən reallaşdırılır. Bütün güclərin səfərbər olunduğunu bildirən dövlət başçısı görülmüş və görüləcək işləri diqqətə çəkib. Bildiyimiz kimi cari ildə keçmiş məcburi köçkünlər Talış kəndinə və Laçın şəhərinə qayıdıblar. ”İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar”, - deyən Prezident Qayıdış proqramının ardıcıllıqla aparıldığını və beləliklə, ilin sonuna qədər artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşların öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlarını bildirib: ”Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Mən şəxsən 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etmişəm. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır. Təbii ki, ilk növbədə, infrastruktur layihələri icra olunur. Çünki bu layihələr icra edilmədən biz vətəndaşları qaytara bilmərik”.

## “GÖRÜLƏN BÜTÜN İŞLƏR AZƏRBAYCAN HESABINA HƏYATA KEÇİRİLİR”

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlər 30 ildən sonra könüllü olaraq təhlükəsiz və yaşayış üçün yararlı olan doğma yurdlarına qayıdırlar. Artıq işğaldan sonra digər ərazilərimiz kimi, Laçın da böyük quruculuq meydanına çevrilib. Ağalı və Talış kəndindən sonra əzəli torpaqlarımızın sahibləri olan laçınlıların da bir qismi öz yurdlarına qayıtdılar. Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəriciləri sırasındadır. 7-8 ay ərzində 700 bina inşa edildi. Artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Laçın şəhərinin Baş planı hazırlanıb. təqdim edilib. Plana əsasən, Laçın şəhəri ”ağıllı idarəetmə”, müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək. Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq.

## “İLİN SONUNA QƏDƏR BİZİM ARTIQ BEŞ YAŞAYIŞ MƏNTƏQƏMİZDƏ - BİR ŞƏHƏR VƏ DÖRD KƏNDİMİZDƏ VƏTƏNDAŞLAR ÖZ DƏDƏ-BABA TORPAQLARINDA TAM MƏSKUNLAŞACAQLAR”

“Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq”, - deyən Cənab Prezident bildirib ki, bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq: ”Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik. Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik. Onu da bildirməliyəm ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir”. İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Cari ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına veriləcəkdir: ”İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur”, - deyə Prezident bildirib. Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür.

## “BİZ AYRILAN HƏR BİR VƏSAİTƏ BÖYÜK QƏNAƏTLƏ YANAŞMALIYIQ VƏ ŞƏFFAFLIQ TAM TƏMİN EDİLMƏLİDİR”

Bildiyimiz kimi, ərazilərin azad olunmasından dərhal sonra genişmiqyaslı yenidənqurma işlərinə start verilmişdir. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2,2 milyard ABŞ dolları məbləğində vəsait ayrıldı. Bölgələrdə elektrik enerjisi ilə bağlı layihələr icra edilməkdədir. İçməli su və bununla bağlı işlər, kənd təsərrüfatı işləri, yüzlərlə məktəb, xəstəxana, idman kompleksləri, mədəniyyət ocaqların inşası, habelə digər irihəcmli işlər Böyük Qayıdış çərçivəsində reallaşdırılacaqdır. Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***





---



## 100 illik yubileyi xatırlanır Ulu Heydərin!





**Mürsəlova Ofelya Mürsəl qızı**
**ADPU-nun Pedaqogika kafedrasının sabiq baş müəllimi**

Qaytara bilmərik bu gün dünəni
Xəyallar aparır keçmişə məni.
Qarşımda canlanır Onun surəti,
O ciddi görkəmi, nurlu aləmi
Qəlbim xatırlayır Ulu Heydəri!

O, elmin, təhsilin carçısı idı,
Yetimin, kasıbın qayğısı idı.
Rüşvətxor, dələduz Ona yad idi
Xalqına xidməti əvəzolunmaz...
Xalq daim xatırlar Ulu Öndəri!

Allahın sevdiyi O böyük İNSAN,
Dünyada zəhmətlə qazandı ad-san.
Qara səhər dönüb oldu Ağ səhər
Gülüstandır, bax bizim Azərbaycan
Dövlətin rəhbəri bu ğündür İlham!

İşğaldan azaddır artıq Qarabağ,
Qəlblərdən silindi ən böyük bir dağ.
Köçkünlər qayıdır el-obasına
Zəfər bayrağıyla canlanır torpaq
Rəhmət diləyirlər El Atasına!

# 14 iyul 1969-cu ildən başlayan böyük siyasi kurs

## *Xəzər rayonunda Ümummilli liderin siyasi hakimiyyətə gəlişi ilə bağlı tədbir keçirilib*

Xəzər Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Xəzər Rayon Təşkilatının birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlişi ilə bağlı "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda dəyirmi masa keçirilib. SİA xəbər verir ki, tədbirdə Xəzər Rayon İcra Hakimiyyətnin başçısı Elşən Salahov, YAP Xəzər Rayon Təşkilatının sədri Namiq Əhmədov, Yeni Azərbaycan Partiyasının İdarə heyətinin üzvü, YAP Xətai Rayon Təşkilatının sədri Vüqar Rəhimzadə, "İki sahil" qəzetinin baş redaktoru, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, RİH başçısının müavinləri, RİH başçısı Aparatının şöbə müdirləri, Xəzər Rayon Ziyalılar Cəmiyyətinin sədri Təvəkkül Səlimov, rayonun təhsil, səhiyyə, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələrinin üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.





Yeni Azərbaycan Partiyası Xəzər Rayon Təşkilatının inzibati binasında keçirilən tədbirdə qonaqlar öncə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib və Ümummilli liderə həsr olunmuş foto sərgi ilə tanış olublar. Tədbir Ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü naminə canından keçən şəhidlərimizin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Giriş sözü ilə çıxış edən Yeni Azərbaycan Partiyası Xəzər Rayon Təşkilatının sədri Namiq Əhmədov Ulu öndər Heydər Əliyevin siyasi kursundan söz açıb, 1969-cu ildən onun Azərbaycana rəhbər seçilməsi, tariximizə ölkəmizin sürətli və uzunmüddətli inkişafının əsasını qoyması kimi daxil olduğunu qeyd edib. N.Əhmədov bu günün tarixi əhəmiyyətini qeyd edərək, müstəqil dövlətimizin qurulmasında və möhkəmlənməsində Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb və son onilliklər ərzində qazanılan uğurların Ümummilli liderin adı ilə bağlı olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Xəzər Rayon İcra Hakimiyətinin başçısı Elşən Salahov şəxsiyyətin meydana gəlib formalaşmasında tarixi şəraitin yarandığı zaman millətinə, torpağına qəlbən bağlı olanlar, eyni zamanda cürətinə, qabiliyyətinə, istedadına, biliyinə və liderlik bacarığına arxalanıb həyatları bahasına olsa belə xalqlarının tarixini yaradan insanların az olduğunu qeyd edərək, Ümummilli lider Heydər Əliyevin məhz belə şəxsiyyətlərdən olduğunu vurğulayıb. E.Salahov qeyd edib ki, 14 iyul 1969-cu il Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olması, xalqımızın tarixi və taleyində əhəmiyyətli dönüşün başlanğıcı, eyni zamanda ölkəmizin inkişafının əsasının qoyulduğu tarixdir. Ümummilli lider Heydər Əliyev o mürəkkəb tarixi şəraitdə ölkəmizi keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevirmək üçün qısa müddətdə bütün sahələrdə geniş islahatlar proqramı həyata keçirməklə əslində, gələcək müstəqil və güclü Azərbaycanın əsasını qoyub.

14 iyul 1969-cu ildən başlayan böyük siyasi kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir və bunun nəticəsidir ki, müasir, demokratik, müstəqil Azərbaycan dünya səviyyəsində mühüm strateji mərkəzə, Cənubi Qafqaz regionunun liderinə, transmilli layihələri reallaşdıran və mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən qüdrətli dövlətə çevrilib. 44 günlük Vətən Müharibəsinə toxunan E.Salahov bildirib ki, Ali Baş Komandan, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi və qətiyyəti, müzəffər ordumuzun qəhrəmanlığı sayəsində 44 günlük Vətən Müharibəsində qazanılmış tarixi zəfər, ölkəmizin gücünün və qüdrətinin nümayişi, Azərbaycanın dünyada artan nüfuzunun böyük göstəricisidir.

Sonra "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Xəzər Rayon Ziyalılar Cəmiyyətinin sədri Təvəkkül Səlimov, şəhid anası Məleykə Məcidova çıxış ediblər. Çıxış edən natiqlər bu günün dövlətimiz üçün əhəmiyyətindən danışaraq Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixindəki əvəzsiz rolunu vurğulayıblar.

***Poeziya ruhun cəmiyyətə, insan psixologiyasına təsiri ilə zamanla insan arasında olan dərin bağlantını əks etdirən sənət aləmidir. Onun diqtəsi qədər insan ruhuna, insan qəlbinə nüfuz edə biləcək dəyərli qüvvə yoxdur. Poeziyanın ən mükəmməl nümunələri, məhz idrakın kainatla bağlı olduğu zamanda, eləcə də, həyatı dərk etmək zamanı meydana çıxır. Ruhu incə, nəcib və səmimi olan şəxslər, məhz şairlik iddiası ilə fikir dünyasından qaynaqlanan ideyaları sənət dünyasına bəxş edirlər. Tanrının yaratdığı insanlar sırasında Ona yaxın olan da məhz şair, söz əhlidir.***



# 75 ilin zirvəsində

Əlbəttə ki, söz əhli ilə müəllimlik, insanlıq bir tərəzidə olanda belə məqamda dünyanın biçimində Tanrının yaratdığı varlıq uca zirvədə öz taxtacını qurur. Azərbaycan poeziyasına kiçik yaşlarından qədəm qoyan Azərbaycan və dünya klassikasını əxz edən Ofeliya xanım Mürsəlova kövrək addımlarını poeziya aləminə ata-ata hər ömründən düşən yarpağı yaşadığı illərin salnaməsinə həkk edib. Bu gün isminin qarşısına şair və pedoqoq adların şərəflə həkk edən qəhrəmanımızın 75 yaşı tamam olur. Ömrünün səhifələrini zəhmət və istedadı ilə yazan Ofeliya xanımın özünəməxsus tərcümeyi-halı var. Hər kəsin özündən biixtiyar olaraq yaşadığı həyatın hökmünü verən zaman, onu nizamlayan və fərdlərin keyfiyyətlərini üzə çıxarılmasında qərar verən illər və bu məsafədə istedad və zəhmətin fövqündə duran amillər, məhz onun həyat naxşını salır. Neçə onillikləri yola salmış və ömrünün kamil bir zamanında hesabatını nizamlayan və bu yaşantılarının müqabilində özü-özünə məsuliyyətlə yanaşan Ofelya xanım Mürsəlovanın da həyat və fəaliyyəti zamanın ölçüsündə zəngin və maraqlı görünür.

Bu gün onilliklərin hesabatında Ofelya xanımın şair, publisist, pedaqoq olaraq xarakteristikası, cizgiləri yaşantılarında öz əksini tapıb. Ofelya xanım gənclik dövründə öz yaşıdlarından fərqlənən bir xanım olduğundan hələ tələbə ikən göstərilən etimadın qarşısında böyük uğurları həyat yoluna həkk etmişdir. Belə ki, Bakı Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi olan Ofelya xanım 1971-ci ildən respublika tələbələri adından 13-cü çağırış Azərbaycan Respublikasının ilk tələbə deputatı seçilmişdir. Bu etimad ona Ulu Öndər Heydər Əliyev tərəfindən göstərilmişdir. Tələbə ictimaiyyətini ətrafında birləşdirən, fikirləri ilə yaşıdlarının ictimai həyatına birbaşa müdaxilə edərək, onların həyat yoluna işıq salmağa cəhd göstərən Ofelya xanım potensialından yararlanaraq yaşıdlarının sevimlisi olmuş, eləcə də, vətənpərvərlik hissləri ilə öz torpağına xidməti amal olaraq həyat yoluna vəsiqə etmişdir. Elmi potensialını artırmaq, Azərbaycan üçün gərəkli ziyalıya çevrilmək məqsədi ona 1976-cı ildə Stavropol vilayətinin Orcenkidze (indiki Vladiqafqaz) şəhərində osetin, çeçen-inquş dilləri üzrə qiyabi aspiranturaya daxil olmağa sövq etmişdir. Təhsilini başa vuran Ofelya xanım 1978-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi pedaqogika bölməsində baş müəllim vəzifəsinə təyin olunmuşdur. 40 il bu təhsil ocağında pedaqoji fəaliyyətini davam etdirib. Yüksək ixtisaslı kadrların hazırlanması sahəsində səmərəli pedaqoji fəaliyyətinə görə universitetin 90 illik yubileyi münasibətilə təhsil naziri Misir Mərdanov tərəfindən fəxri fərmanla təltif edilmişdir. Onu da vurğulayaq ki, o, 1985-1989-cu illərdə isə Moskva Beynəlxalq Hüquq İnstitutunun qiyabi şöbəsində təhsilini davam etdirmişdir. Mənalı ömür yolunu yazan Ofelya xanım şaxəli həyat yolunda bir sıra kitabların müəllifi olaraq tanınıb. Pedoqoji fəaliyyətdə olduğu illərdə o, bir çox elmi məqalələrin və tezislərin müəllifinə çevrilib. Dinin elmi fəlsəfəsini yaradıcılığında şərh edən və onun tərəflərinin izahını yaradıcı nöqteyi-nəzərdən yanaşan Ofelya xanım "Qurani-Kərim"də Allahla insan münasibətləri", "Məhəmməd Peyğəmbərin kəlamları və insan ruhunun tərcüməsi" məqalələri məhz bu mövzuda qələmə alınan nümunələrdir. Azərbaycanın ictimai-siyasi, mədəni həyatı onun yaradıcılıq yolundan kənar ötməmişdir. Belə ki, "Heydər Əliyev təhsil sahəsindəki islahatların banisidir", "Mir Cəlal Paşayev: görkəmli nasirin şəxsiyyətinə və yaradıcılığına tarixi və müasir baxış", "Unudulmaz alim Mir Cəlal Paşayev" və digər məqalələri Ofelya xanımın araşdırmaları, Azərbaycan tarixinə, ədəbiyyatına olan məhəbbətinin fövqündə qələmə alınmışdır. Daim axtarışda olan və zaman üçün aktual olan mövzulara müraciət edən Ofelya xanım "Heydər Əliyev fenomeni elmin inkişafında sönməz cığırdır", "Mir Cəlal Paşayev: şəxsiyyətinə və yaradıcılığına tarixi və müasir baxış" tezisləri elmi konfransların materialları əsasında ərsəyə gəlmişdir. Bütün bunlarla yanaşı, onun elmi əsərləri də yaradıcılığını şaxələndirən amil olaraq diqqətini çəkir. Belə ki, "Qurani-Kərmdə əxlaq tərbiyəsi", "Qurani-Kərimdə elmi biliklərin mənimsənilməsi", "İnam tərbiyəsi haqqında", "Mir Cəlal Paşayev hekayələrində vətənpərvərlik motivləri", "Mir Cəlalın satirik və yumoristik hekayələrində gülüşün tərbiyəvi əhəmiyyəti" və onlarla belə elmi əsərləri pedaqoji tədqiqatların axtarış və tapıntıların müqabilində geniş oxucu kütləsinə təqdim edilmişdir. Bu nümunələrin hər birində Ofelya xanım insan düşüncəsinə təsir edən, onun daxili dünyasına nüfuz edən və cəmiyyətə sağlam ruhlu insanların tərbiyə olunmasına xidmət edən dəyərləri qabartmış və öz düşüncəsinin süzgəcindən keçirən hər bir ali hissələri bu və ya digər əsərlərində əsas xətt olaraq təqdim etmişdir.

Onun yaradıcılığının bir qolunu poeziyası təşkil edir. Fikirlərini bədiiləşdirən, nəzmə köçürən Ofeliya xanımın "Mənim ömür karvanım", "Allaha inanmaq lazımdır" kitablarından məhz qapalı dünyasından soraqlar alırıq. Uşaq yaşlarından jurnal və qəzetlərində şeirləri ilə çıxış edən Ofelya xanım hələ tələbə ikən fəhlə yataqxanalarında əbədi-bədii gecələrində şeirləri ilə insanlarn qəlb dünyasına siyarət edə bilmişdir. Ofeliya xanımın yaradıcılıq dünyasını zinətləndirən "Etiraf", "İstəmədən doğuluruq", "Şəhidlərə", "Vətən nəğməsi", "Şəhidlərin nəğməsi", "Dünya" və digər şeirlərində şairin daxili dünyasının çırpıntıları, vətən sevgisi özünü biruzə verir. Son illərdə həyatın ictimai-siyasi hadisələri ilə bağlı qələmə aldığı şeirlərdə Ofeliya xanımın haqq səsi, vətənlə bir vuran qəlbinin səsi eşidilir.

***Qarabağ uca tut daim başını***  
***Səslə öz qoynuna türk qardaşını***  
***Əzizlə hünərvər can sırdaşını***  
***Səfalı torpaqda qurun-yaradın***  
***Bütün cahan görsün bu təmtarağı***  
***Enilməzdir Azərbaycan bayrağı!***

Ofelya xanım psixoloq, təvazökar insan, istedadlı qələm sahibi və ən əsası isə gözəl pedaqoq olması ilə hər zaman ətrafında olan insanların sevgi və qayğısı ilə əhatə olunub. Onun ictimai fəaliyyəti diqqətdən kənarda qalmır. Ofeliya xanım 75 illik yubileyi münasibəti ilə Səbail rayonunun ictimai-siyasi həyatında fəal iştirakına görə, rayon icra hakimiyyəti tərəfindən Fəxri fərmanla təltif olunub. Eyni zamanda "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev tərəfindən"Uzun illər ardıcıl əməkdaşlığa görə" diploması təltif edilib. Diplomun təqdimetmə mərasimindən çıxış edən Bəhruz Quliyev yubilyarı təbrik edərək, ona can sağlığı və böyük yaradıcılıq uğurları arzulayıb. Bu sevincini bizimlə bölüşən Ofelya xanım fəaliyyətinin qiymətləndirilməsinə görə minnətdarlıq hissini ifadə edib. Cəsarətli, sözünün gücü, inamı, sadəliyi, paklığı ilə seçilən Ofelya xanım ömür yolunda portretinin yaradılmasına müvəffəq olmuş və şövqlə, böyük sevgi ilə həyatın müdriklik, kamillik dövrünü yaşamaqda davam edir. 14 iyul tarixində yubileyini - yaşadığı onilliklərin baharını qeyd edən Ofelya xanıma Tanrının bəxş etdiyi ömür karvanını beləcə mətanətlə, alnıaçıq davam etdirməyi arzulayırıq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qüdrətli Azərbaycan Heydər Əliyevin şah əsəridir!





**14 İyul 2023-cü il tarixdə "Heydər Əliyev İli" çərçivəsində "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" və "YAP Pirallahı rayon təşkilatının yaradılmasının 10 illiyi" mövzularına həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov, tarix üzrə fəlsəfə doktoru, AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri Cəbi Bəhramov, "Səs" qəzetinin baş redaktoru, Səs Media Qrupunun təsisçisi və rəhbəri Bəhruz Quliyev, RİH başçısı yanında Şura üzvləri, YAP Pirallahı rayon Təşkilatının sədri Emil Abasov, Pirallahı Rayon İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, Rayon Ağsaqqallar Şurasının üzvləri, rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisələrin və Qeyri-Hökümət Təşkilatlarının nümayəndələri, müharibə veteranları və fəal gənclər iştirak etmişdir.**





SİA xəbər verir ki, Rayon İcra Hakimiyyətinin inzibati binasının birinci mərtəbəsində Ümummilli lider Heydər Əliyevin büstü qarşısına gülqoyma mərasimi ilə başlayan tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi və Ümumilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə öz işinə başlamışdır. Daha sonra mövzularla əlaqədar videoçarx nümayiş olunmuşdur.

Tədbirdə çıxış edən Səs Media Qrupunun rəhbəri Bəhruz Quliyev vurğuladı ki, Ulu Öndərin qəlbi tam mənada Azərbaycanla döyünürdü və O, hər zaman, hər dəqiqə ölkəsi, xalqı haqqında düşünür, gələcək planlar üzrə yorulmadan çalışırdı. Natiq qeyd etdi ki, 1969-cu ilin 14 iyulu xalqımızın, Azərbaycanımızın yeni tarixinin dönüş mərhələsinin başlanğıc nöqtəsidir və bu gün biz həmin dövr barədədanışanda vurğulamalıyıq ki, müasir Azərbaycan dövlətçiliyinin söykəndiyi təməl prinsiplər məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yaradılmışdır.

Daha sonra çıxış edən AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov Pirallahıda olmaqdan məmnunluğunu ifadə etdi. Natiq bildirdi ki, Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş və beləliklə, rəhbərlikdə olduğu 1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi daxil olmuşdur.

Növbəti olaraq çıxış edən tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov qeyd etdi ki, Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmiş, Sovet Azərbaycanı dövründə - 1969-82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər. Natiq vurğuladı ki,Azərbaycan xalqının faciələri Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdır. Əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər.

Çıxış edən ARDNŞ-nın Neft Kəmərləri İdarəsinin Dübəndi İstehsalat Bölümünün rəisi Elxan Məmmədovhazırda rəhbərlik etdiyi müəssisənin Ulu Öndərin neft siyasətinin bir hissəsi olduğunu qeyd etdi. E.Məmmədov vurğuladı ki, Azərbaycan Respublikası Heydər Əliyev dühasının şah əsəridir. Güclü, getdikcə daha da qüdrətlənən dövlətimizin qazandığı bütün uğurlar üçün biz dünya şöhrətli siyasi xadim Heydər Əliyevə borcluyuq.

Daha sonra çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatının sədri Emil Abasov, qeyd etdi ki, ötən il Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu, dünənin, bu günün və gələcəyin partiyası kimi dəyərləndirdiyi, hazırda Prezident İlham Əliyevin sədrliyi ilə uğurla inkişaf edən, regionun ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 ili tamam olub. Bu il isə paytaxtın ən gənc rayonu olan Pirallahıda yaradılmış YAP Pirallahı rayon təşkilatının 10 illik yubileyidir. Qısa tarixinə baxmayaraq YAP Pirallahı rayon təşkilatı böyük uğurlar qazanmışdır. Partiyanın hazırda 6241 üzvü vardır ki, bu, rayon əhalisinin 30 faizindən yuxarıdır. Bu göstərici ilə Pirallahı rayonu partiya üzvlərinin əhalinin sayına nisbətinə görə ən öncülyerlərdə qərarlaşır. Daha sonra E.Abasov 10 il ərzində partiyanın əldə etdiyi uğurlar, həyata keçirdiyi işlər və qarşıya qoyulmuş məqsədlərlə bağlı geniş nitqlə çıxış etdi.

Yekun olaraq çıxış edən RİH başçısı Vasif İmanov, ilk növbədə 3 il öncə baş verən və ölkəmizin 44 günlük Vətən müharibəsindəki böyük zəfərinin ilk mərhələlərindən olan Tovuz döyüşlərini xatırlatdı və 14 iyul tarixinin həm də general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevinşəhadətə ucalmaqlarının ildönümü olduğunu qeyd etdi. Azərbaycanın Milli Qəhrəmanları hörmətlə anıldı.

Daha sonra RİH başçısı qeyd etdi ki, 1969-1982-ci illərdə Azərbaycanın inkişaf tarixinin dinamikası belə bir fikri təsdiq edir ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, respublikamızın müstəqil dövlətquruculuğuna aparan yol olmuşdur. Heydər Əliyevin böyük əməyinin nəticəsində həyata keçirilən dəyişikliklərin həcminə, ictimai-iqtisadi islahatların əhatəliliyinə görə 70-80-ci illər Azərbaycanın tarixində ən parlaq səhifələr təşkil etmişdir. 70-ci illərdən başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, milli özünüdərk duyğularını, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı milli dövlətçilik ideyasının milli azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsində mühüm zəmin oldu. 80-ci illərin sonu - 90-cı illərin əvvəlində müstəqillik uğrunda mübarizənin yüksəlişi Heydər Əliyevin rəhbərliyinin birinci mərhələsindəəldə edilmiş iqtisadi canlanma və milli mübarizlik ruhunun təşəkkülü nəticəsində mümkün oldu. O da məmnuniyyətlə qeyd edildi ki, Ulu öndər 14 iyul plenumundan dərhal sonraplenumda iştirak edən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi İvan Vasilyeviç Kapitonov ilə birgə Neft Daşlarına səyahət etmişdir.

RİH başçısı nitqinin sonunda YAP Pirallahı rayon təşkilatının 10 illik yubileyi münasibətilə partiya üzvlərini təbrik etdi və onlara bundan sonrakı fəaliyyətlərində müvəffəqiyyətlər arzu etdi. Vurğulandı ki, təşkilatın hər bir üzvü Azərbaycanı bugünkü inkişaf səviyyəsinə gətirib çıxaran ulu öndər Heydər Əliyevin siyasətinin, ideyalarının təbliğatçısı olmaqla bərabər, partiyanın Nizamnaməsinə və Proqramına uyğun olaraq qarşıya qoyulan vəzifələrin uğurlu icrasına öz töhfəsini verməyə səy göstərməlidir.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən və YAP Pirallahı rayon təşkilatının fəaliyyətində fəallıqları ilə seçilən bir qrup şəxsə Fəxri Fərmanlar və qiymətli hədiyyələr təqdim olundu.

# Tariximizin şərəfli Heydər Əliyev epoxası



*Yaşar Əhmədov Fəlsəfə üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Humanitar fənlər" kafedrasının dosenti*

***Bu gün Ümummilli lider Heydər Əliyev şəxsiyyəti xalqın tarixində, onun milli siyasi təfəkküründə, dövlətçilik şüurunda əsaslı məna yükü daşıyan qeyri-adi fenomenə çevrilmişdir-bu fenomeni bu böyük insanın öz millətinə, Vətəninə həsr olunan şərəfli ömür yolu, bir qərinədən artıq Azərbaycana rəhbərlik fəaliyyəti, xalqın öz həqiqi liderinə olan böyük sevgisi və inamı yaratmışdır və bu gün də Ümummilli liderin xatirəsi onu həmişə əziz tutan milyonları bir daha öz işığına toplaya, öz nuruna bürüyə bilir.***

Böyük xalqlar kimi bizim xalqımızın da tarixdə özümüzəməxsus imzası var, onun yaratdığı dövlətlər Yaxın və Orta Şərqdə çox ciddi tarixi izlər qoymuşdur. Dövlətçilik yaşadığımız tarixi dövrün reallıqları ilə tarixi keçmişimiz arasındakı əlaqələrin bərpa olunması və bunun hər bir formada insanlara çatdırılmasıdır. Dövlətçilik dedikdə, ilk növbədə tarixdən bizə ötürülən, nəsillərlə əxz etdiyimiz, qazandığımız həmin dövlət prinsiplərinin saxlanılması, qorunması yada düşür. Hər bir xalq üçün birinci onun dövlətidir-əgər dövlət yoxdursa, heç bir ideologiya və prinsipdən danışmaq olmaz. Dövlətin qorunmasını, onun müstəqilliyin möhkəmləndirilməsini başlıca amil hesab edən Ulu Öndər deyirdi: "Milli ideologiya, ilk növbədə dövlətçilikdən ibarətdir. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından – hər şeydən üstün tutsun".

Ümummilli lider böyük siyasət ustadı olaraq hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Ulu öndərin rəhbərliyi altında hazırlanaraq qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipinin, demokratik - hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarının, insan hüquq və azadlıqlarının qeyd - şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Demokratik tələblərə tamamilə cavab verən bu ali sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixilik qazanmışdır.

Ulu öndər qeyd edirdi ki, Azərbaycanın demokratik dövlət olmasını şərtləndirən əsas meyarlardan biri də xalqın hakimiyyətin əsas mənbəyini təşkil etməsi və idarəçilik mandatının yalnız xalqa malik olmasıdır. Öz fəaliyyətində hüququ rəhbər tutmayan, əsas insan hüquq və azadlıqlarını təmin etməyən, qanunun aliliyinə söykənməyən, ictimai həyatın bütün sahələrini qanunlar əsasında idarə etməyən sistem hüquqi ola bilməz. Bu mənada, Azərbaycanda hakimiyyətin əsas mənbəyi kimi xalqı və əsas məqsədi kimi onun maraqlarının təmin edilməsini qəbul etməsi, eyni zamanda hüquqi dövlətin mövcudluğunun şərtləndirir. Respublikamızda dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır .

Müstəqil Azərbaycanı böyük dünya siyasətinə qovuşduran siyasi liderin həyatı və irsi barədə düşünərkən gözlərimiz önündə onun heyrətamiz intellekti, işıqlı ideyaları, xüsusilə dəyərli əxlaqi və siyasi siması canlanır. Hər kəs bu dahi şəxsiyyətlə bağlı hər hansı bir fikir söyləyərkən böyük şərəf və məsuliyyət hissi keçirir-belə ki, fərdi-subyektiv ölçülərə sığmayan

Ulu öndər şəxsiyyətini dəyərləndirməyə cəhd etmək tarixə, zamana, gələcəyə qiymət vermək qədər çətindir. Etiraf etmək lazımdır ki, özünün böyük həyatı və zəngin fəaliyyəti boyu Ümummilli liderin xalqımız və dövlətimiz üçün etdiklərini ondan əvvəlki dövlət adamlarımız, ictimai - siyasi xadimlərimiz edə bilməmişlər. Ona görə də Heydər Əliyev siyasi tariximizə qurucu və xilaskar kimi daxil olmuş görkəmli dövlət xadimi, ümummilli lider və xalq məhəbbətini qazanan dahi bir şəxsiyyətdir. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında onun qədər misilsiz xidmətlər göstərən başqa dövlət adamı tapmaq çətindir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz olmaqla yanaşı, həm də bütün dünyanın etiraf etdiyi görkəmli liderdir. Tanrı bu dahi şəxsiyyətə alicənablıq, qüvvətli ruh, geniş ürək, dərin ağıl, dəmir iradə, coşqun enerji, zəngin təcrübə vermişdir. O, böyük ictimai - siyasi fəaliyyət təcrübəsinə malik beynəlxalq miqyaslı, nüfuzlu bir dövlət xadimi idi. Onun nüfuzu, şöhrəti, ilk növbədə bu böyük şəxsiyyətin fitri istedadı, zəkası və fədakar əməyindən qidalanırdı. Onun böyük gücü isə dərin və universal biliyində idi. Ulu öndər qətiyyəti, uzaqgörənliyi, səbirliliyi, müdrikliyi, əzmkarlığı, idarəçiliyi ilə onu tanıyanları heyrətləndirirdi.

Siyasi yüksəliş illərində Ümummilli liderin başlıca keyfiyyəti – parlaq dövlətçilik bacarığı özünü qabarıq göstərdi-o siyasi planlarını çılpaq, volyuntarist əmrlər şəklində deyil, gündəlik və yorulmaz təşkilatçılıq yolu ilə həyata keçirirdi. Ətrafdakı insanlar, cəmiyyət bunu çox vaxt hadisələrin təbii axarı kimi qəbul edirdilər. Əslində isə böyük öndərin hər bir kadr dəyişikliyinin uzaqgörən məqsədləri var idi. Həmişə milli dövlətçilik planları ilə bağlı idi. Ulu öndərin digər rəhbərlik xüsusiyyəti uzaqgörənliyində, siyasi və iradi ardıcıllığında özünü göstərirdi. Böyük planlar qurmaq ümummilli liderin siyasi rəhbərliyinin mühüm cizgisi idi, amma kənardan onun bu xüsusiyyəti də demək olar ki, sezilmirdi. Səbəb isə o idi ki, Ulu öndərin siyasi qərarları və gedişləri neçə illər sonraya yönəlirdi-onun qəbul etdiyi qərarların mənası müəyyən vaxt keçdikdən sonra görünürdü.

Müasir Azərbaycanın mənəvi dəyərlərinin inkişaf istiqamətləri Ümummilli lider tərəfindən müəyyənləşdirilmiş, bütün konsepsiyalar dövlətçilik və milli maraqların təmini üçün uğurla davam etdirilmiş, zəruri hallarda məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əxz etmişdir. Tarixin gedişinə təsir göstərən böyük siyasi liderlər irəli sürdükləri mütərəqqi ideyalarla xalqı öz ətrafında birləşdirməyə, hər bir addımda ictimai inam qazanmağa çalışmış, məhz bunun da sayəsində böyük uğurlara imza atmışlar. Fəaliyyətində daim ictimai mənafeni əsas götürən, xalqın dəstəyinə arxalanan siyasi lider konkret siyasi mərhələdə xalqın sabit inkişaf yolunu düzgün müəyyənləşdirmək, milli maraqları qorumaq əzmi ilə seçilir. Siyasətdə ictimai inam qazanmaq məramı demokratik dəyərlərin ön plana çıxdığı hazırkı "sürət əsri"ndə də qətiyyən aktuallığım itirmir. Hakimiyyəti millətə layiqli xidmət vasitəsi sayan və bunu əməli fəaliyyəti ilə sübuta yetirən liderlər milyonlarla insanın iradəsi əsasında dövlətə rəhbərlik şansını qazanırlar. Tarixin sərt sınaqlarından üzüağ çıxan Azərbaycan xalqı da taleyini hər zaman qəlbən inandığı, etimad göstərdiyi siyasi liderlə bağlamışdır.

Parlaq zəkası, dövlətçilik təcrübəsi, yenilməzliyi və cəsarəti ilə müstəqil Azərbaycan dövlətini məhv olma təhlükəsindən qoruyub saxlayan, onu yaşadan və bu dövlətin bütün atributlarını qurub-yaradan Ümummilli liderin Vətən və xalq qarşısında xidmətləri əvəzsizdir. O, hakimiyyətdə olduğu illərdə Azərbaycanı sosial - iqtisadi, ictimai - siyasi və mədəni cəhətdən inkişaf etmiş ölkəyə çevirmişdir. Azərbaycanın hərtərəfli inkişafı Ulu öndərin adı, şəxsiyyəti, dövlətçilik təfəkkürü, idarəetmə məharəti və yorulmaz fəaliyyəti ilə sıx bağlı olmuşdur. Ən yüksək tribunalardan böyük iftixarla "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" söyləyən bu böyük şəxsiyyət, ilk növbədə, dövlətçilik tariximizin müasir mərhələsinin əsasını qoydu, Azərbaycanın reallıqlarını, ictimai - siyasi, mədəni - mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl bir elmi - nəzəri sistem - dövlət quruculuğu fəlsəfəsini, dövlətçilik ideologiyasını yaratdı.

Böyük strateq və dahi şəxsiyyət hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti - quruculuq tədbirləri ilə, habelə bir neçə onillikdən sonra müstəqillik nemətinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə bu böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur. Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda məhz Ulu öndərin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir.

Ümummilli lider hələ 70 – 80 - ci illərdə respublikanı nəhəng tikinti meydançasına çevirərkən, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verərkən, bir sıra yeni təhsil ocaqlarının, o cümlədən mədəniyyətin, fundamental və tətbiqi elmlərin sıçrayışlı inkişafına nail olarkən məhz bugünkü və gələcək tərəqqinin, dinamik sosial - iqtisadi inkişafın möhkəm təməlini qoymuşdur. Ulu öndərin ölkəmizə birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Bu nöqteyi - nəzərdən Azərbaycan xalqının müstəqil dövlətdə yaşamaq idealının real, dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi çağdaş tariximizin unudulmaz dühası olan Ümummilli liderin adı ilə bağlıdır.

Tarixi təcrübə təsdiqləyir ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha çətin prosesdir. Ümummilli lider dəfələrlə qeyd etmişdir ki, müstəqilliyi əldə etmək qədər də onu qoruyub saxlamaq, əbədiliyini dönməz etmək çətindir-bu baxımdan dövlətçiliyimizə, dövlətçiliyimizin möhkəmləndirilməsinə onun verdiyi töhfələr əvəzsizdir. Belə bir ziddiyyətli və mürəkkəb mərhələdə dövlətin xilası məhz xarizmatik liderlərdən asılı olur və bu, inkaredilməz bir faktdır ki, dünya tarixinin nadir şəxsiyyətlərindən olan Heydər Əliyev öz siyasi uzaqgörənliyi, müdrikliyi, təcrübəsi, iradəsi və qətiyyəti ilə Azərbaycanı və xalqımızı tarixin ağır sınaqlarından uğurla çıxarmışdır. Ulu öndərin dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycan Respublikasının hüquqi və siyasi - iqtisadi suverenliyinin təmin olunması prosesi sürətlənmişdir. Ümummilli lider, ilk növbədə, ölkədə ictimai - siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri - qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial - iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai - siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur.

Ulu öndər irəli sürdüyü dövlətin təməl prinsiplərindən biri sayılan qanunun aliliyinin ölkəmizdə təmin olunmasna nail oldu. Dövlət varsa, qanun olmalıdır-əgər qanun yoxdursa, dövlət mövcud olma bilməz. Dövlət qanuna söykənməlidir-qanunçuluq prinsipi, bir tərəfdən qanunun aliliyidir, digər tərəfdən isə zamanın tələbinə və reallığa uyğun olaraq yeni qanunların yaradılması və onların işlək olmasına ictimai nəzarətin gücləndirilməsidir. Dahi şəxsiyyət dəfələrlə bildirmişdir ki, dövlət xalqa xidmət etməlidir, dövlətin xalqa xidmət etməsi üçün dövlət məmurları, dövləti idarə edən şəxslər daim xalqla təmasda olmalıdır. Yaxşı hökumət o hökumətdir ki, nəinki insanları xoşbəxt etmək istəyir, həm də buna hansı yolla nail olmağı bilir və bunu həyata keçirməyə qadirdir. Bu böyük şəxsiyyətin liderin irəli sürdüyü qanunçuluq prinsipindəki mühüm fikirlərdən biridir. Ölkəni və xalqı yaranmış böhrandan qurtarmaq üçün Ümummilli lider əlverişli geosiyasi mövqeyindən və zəngin təbii ehtiyatlarından istifadə olunmasını respublikanın və xalqın üzləşdiyi problemlərin həllinə yönəltməyi də müvəffəqiyyətlə bacardı.

Bu gün tariximizin son yarım əsrlik dövrünə nəzər yetirəndə Azərbaycanın gələcəyinə istiqamətlənmiş, effektli, uzunmüddətli şərtlərin təminatını, intellektual və elmi potensialın inkişafını nəzərdə tutan, cəmiyyətin həyatına nüfuz etmiş praqmatik siyasətin təzahürlərini görürük. Azərbaycanın müstəqilliyinə yönəlmiş bu müdrik siyasətin təməlini qoymuş Ulu öndər çiyinlərində bütöv bir xalqın varlığını, bütün bəşəri keyfiyyətlərini, dövlətçilik missiyasını daşıyan böyük lider kimi millətin xarakterini, milli iradəni atdığı hər bir addımında əks etdirirdi. Ulu öndər təkcə öz ömrünün, bir insan həyatının müdriklik zirvəsində deyildi, həm də bütöv bir xalqın tarixinin yüksək zirvəsində idi-O, Azərbaycan xalqının müdriklik simvolu, müdriklik zirvəsi idi.

Bu zirvədən baxanda yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bu günü, sabahı görünürdü.

Ümummilli liderin müdrik siyasətinin dəyəri məhz elmi prinsiplər üzərində qurulması, intellektual potensiala və malik olduğu zəngin təcrübəyə əsaslanmasında idi. Cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, intellektdə, mənəvi - əxlaqi dəyərlərdə görən bu dahi insan elmimizin, mədəniyyətimizin, ədəbiyyatımızın gözəl bilicisi və araşdırıcısı idi. "Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır"–deyən Ulu öndər Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu tarixi keçmişinə, zəngin milli - mənəvi dəyərlərinə, maddi - mənəvi irsinə və onları yaşadan, inkişaf etdirən ziyalılara, elm, mədəniyyət və incəsənət xadimlərinə daim qayğı ilə yanaşmış, xalqın mənəviyyatını zənginləşdirən, onu bütün dünyada tanıdan milli dəyərlərimizin hərtərəfli inkişafı və yüksəlişi üçün əlindən gələni əsirgəməmişdir.

Bütün həyatı və fəaliyyəti boyu ağsaqqal sözünə hörmətlə yanaşan müdrik dövlət başçısı milli - mənəvi dəyərlərimizə, soy - kökünə qırılmaz tarixi tellərlə bağlı olan bir şəxsiyyət idi. Əslində, Ulu öndər təbiət etibarilə və xarakterindəki bütün cizgiləri ilə bu millətin ən böyük və müdrik ağsaqqalı idi. Azərbaycanın, eləcə də dünyanın siyasət arenasına yeni siyasi mədəniyyət gətirən lider kimi məhz o, ölkəmizi dərin siyasi və iqtisadi böhrandan xilas edərək dinamik inkişaf yoluna çıxardı. Bu bir danılmaz faktdır ki, ötən əsrin 90 - cı illərinin əvvəllərində Azərbaycanın düşdüyü çətin və ağır vəziyyət ölkəmizi, sözün əsl mənasında idarə edə biləcək ensiklopedik təfəkkürlü, dərin erudisiyalı müdrik rəhbərin olmamasından yaranmışdır. Lakin tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz - üzə qalmış Azərbaycanı bu dahi şəxsiyyət qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan bir ölkəyə çevirə bildi. Ümummilli lider öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirərək xalqımızın taleyində silinməz izlər qoydu. Şərəfli və məhsuldar ömür yolu, mənəvi saflığı və vətəndaş böyüklüyü ilə seçilən müdrik dövlət xadiminin siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər bu gün göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai - siyasi həyatımızda öz əksini tapmışdır.

Ulu öndər "milli mənəvi dəyərlərimizin qızıl fondu" adlandırdığı ağsaqqallara hər zaman diqqət və qayğı göstərmiş, Azərbaycana rəhbərliyi dövründə taleyüklü qərarların qəbulu zamanı onların məsləhət və tövsiyələrinə həmişə önəm vermiş, ölkəmizin ictimai - siyasi həyatındakı həlledici tarixi məqamlarda ağsaqqalların dəstəyinə arxalanmışdır. Azərbaycan Ağsaqqallar Şurasının fəaliyyəti də Ümummilli liderin yaxından köməkliyi ilə daha da genişlənmiş və ağsaqqallarımız da öz növbəsində cəmiyyətin sağlam ruhda inkişafı, gənc nəslin yüksək vətənpərvərlik ruhunda böyüməsi üçün üzərlərinə düşən öhdəlikləri layiqincə yerinə yetirmişlər. Onlar Azərbaycanın ictimai - siyasi həyatı ilə bağlı ən aktual məsələlərə, ölkəmizdə həyata keçirilən demokratik proseslərə, islahatlara vətənpərvər ictimai xadim, əsl ziyalı, müdrik ağsaqqal və vətəndaş məsuliyyətilə münasibət bildirmiş, öz əməli fəaliyyətləri ilə bu prosesin fəal iştirakçısı olmuşlar. 90-cı illərdə Milli Məclisdə bu dahi liderə qarş təşkil olunan şou, rəhbərliyi dəstəyi ilə müəyyən adamların, vaxtilə işlərində buraxdıqlar nöqsanlara, rüşvətxorluğa görə işdən qovulanların "mikrafon yarşı" o dövr siyasətçilərinin ağsaqqala münasibətinin təzahürü idi.

Hər zaman ölkəmizin və xalqımızın hərtərəfli inkişafının qayğısına qalan Ulu öndərin respublikamıza rəhbərliyi dövründə Azərbaycanın beynəlxalq aləmdə mövqeləri möhkəmlənməyə başladı, ölkə daxilində ictimai - siyasi sabitlik bərqərar oldu və dövlətimiz sosial - iqtisadi inkişaf sahəsində böyük uğurlara imza atdı. Beləliklə, ölkəmiz siyasi və iqtisadi cəhətdən regionun ən güclü dövlətinə çevrildi və dünyanın super gücə malik dövlətləri Azərbaycanla əməkdaşlığa böyük önəm verməyə başladılar. Bu yüksək tərəqqinin müəllifi olan Ümummilli lider Azərbaycanın parlaq və firavan gələcəyinə öz varlığı qədər inanırdı-onun təməlini qoyduğu siyasi kurs və iqtisadi inkişaf modeli dərin elmi əsaslara və qabaqcıl dünya təcrübəsinə söykənirdi. O, bu siyasi kursu və inkişaf modelini dönmədən, qətiyyətlə və ardıcıl şəkildə davam və inkişaf etdirə biləcək siyasi lideri də görə bilirdi. Ulu öndər İlham Əliyevin Azərbaycan üçün taleyüklü məsələləri həll etməyə qadir olduğunu vurğulayır və ona özü qədər inandığını bildirirdi. Tarix göstərdi ki, böyük müdrikliyə və uzaqgörənliyə malik olan dahi siyasətçi və böyük tarixi şəxsiyyət yanılmamışdır.

Ulu öndər Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı. Bu baxımdan Azərbaycan Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001 - ci il 18 iyun tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001 - ci il 9 avqust tarixli fərmanları böyük tarixi - siyasi əhəmiyyətə malik sənədlər idi-bu fərman dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynadı. 1991 - ci ildə latın qrafikalı Azərbaycan əlifbası qəbul olunsa da, bu qərar kağız üzərində qalmışdır-yalnız Ümummilli liderin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanından sonra ana dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə stimul verildi. Məhz bundan sonra respublikada bütün yazılı sənədləşmələr latın qrafikası ilə aparıldı. Prezidentin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004 - cü il 12 yanvar tarixli sərəncamları da öz ictimai - tarixi əhəmiyyətinə görə yüksək qiymətləndirilir. Həmin sənədlərə uyğun olaraq 2004 - cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı hazırlanmış və çap olunmuşdur. Dövlət başçısı milli - mənəvi dəyərlərimizə, elmin və mədəniyyətin inkişafına böyük diqqət yetirdiyini bir daha təsdiqləmişdir. Ulu öndər Azərbaycan dilinə məhz azərbaycançılığın mənəvi əsası kimi yüksək qiymət verirdi: "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də, dünyada yaşayan bütün azərbaycanlıların dili olsun".

Ulu öndər Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial - siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olmuşdur. Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR - nin qanunlarında (xüsusilə Konstitusiyada) əksini tapmış, mərkəzin etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilmişdir. Azərbaycan dilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilmiş, bir sıra digər sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gənclərin ana dilində təhsilinə üstünlük verilmişdir. Dahi şəxsiyyət digər sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması, adət - ənənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlamışdır. Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi əhəmiyyət verən Ümummilli lider ana dilimizi özümüzə qaytardı. Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması əksini tapdı

Ümummilli lider Azərbaycan dövlətçiliyinin və müstəqil Azərbaycanın banisidir. Milli dövlətə, Azərbaycan dövlətçiliyinə xidmət Heydər Əliyevin bütün siyasi fəaliyyətinin əsas prinsipini, mahiyyətini və mənasını təşkil edir. İkinci prinsip olan islahatçılıq prinsipinə toxunarkən qeyd etmək lazımdır ki, o bir siyasi lider kimi islahatçı, yenilikçi və reformatordur. Bir təşkilatçı lider kimi o qarşıda duran məqsəd və vəzifələri çox aydın gördüyündən həmin məqsəd və vəzifələrə çatmaq üçün lazım olan üsul və vasitələri yaratmağı çox cəsarətlə girişir, lazımi addımlar atır, köhnə iş metodlarını dəyişdirir və yeni dövrün tələblərini təmin edə biləcək kadrları cəsarətlə irəli çəkir. Ulu öndər heç vaxt qarşısına qoyduğu məqsədləri yarımçıq qoymamış, onların hamısını axıra çatdıra bimişdir.

Bu gün Azərbaycanda mühüm əhəmiyyətli və dəyişilməz üç faktor var: Heydər Əliyev – xalq - Azərbaycan dövləti faktorları. Heydər Əliyev böyük bacarıqla Azərbaycan xalqının milli mənafelərini əsas götürərək, onun tarixi arzularını reallaşdıraraq əbədiyaşar Azərbaycan dövlətinin bünövrəsini qoymuşdur. Onun yaratdığı müasir Azərbaycan dövləti bir hüquqi demokratik dövlət kimi müasir dünyanın bütün sivil dövlətləri tərəfindən çox hörmətlə qəbul edilir. Ulu öndər Azərbaycan xalqına xas ola mənəvi dəyərləri daim yüksək qiymətləndirmiş və onları bütün dünyaya tanıtmışdır. "Xalqımız nikbindir, basını heç vaxt aşağı tutmayıb, sınmayıb, əyilməyib, heç vaxt diz çökməyib", – deyən bu böyük şəxsiyyətin gücünün, qüdrətinin mənbəyi də məhz elə öz xalqı olmuşdur. Ümummilli lider heç bir zaman öz xalqına kütlə və yaxud "obıvatel" kimi yanaşmamışdır, əksinə, o həmişə öz xalqının milli qürurunu uca tutmuş və "xalqımız qəhrəman xalqdır" – demişdir. O, öz millətinə və xalqına inandığı kimi, 10 milyonluq Azərbaycan xalqı da məhz ona inanmış, ona etimad göstərmiş və bütün taleyini ona etibar etmişdir. Ulu öndər hər zaman öz xalqının etimadını doğrultmuş bir siyasətçi idi. Biz hamımız, müəllimi Heydər Əliyev olan bir siyasi məktəbin tələbələri zaman - zaman Heydər Əliyevdən öyrənməli, onun bütün fəaliyyət prinsiplərini daim rəhbər tutmalıyıq.

Azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi - sosial doktrinasının sosiomədəni və etnikgeosiyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin mühüm əsasını təşkil edir. Ulu öndər azərbaycançılıq dedikdə, Azərbaycan xalqının öz milli dəyərlərinə söykənməklə bərabər, ümumbəşəri dəyərləri də qəbul etməsi və onlardan yararlanmasını nəzərdə tuturdu. Ümummilli lider azərbaycançılıq ideologiyasının nəzəri cəhətdən elan edilməsi ilə məsələni bitmiş hesab etməmiş və azərbaycançılığın dünyada olan bütün azərbaycanlılar üçün birləşdirici bir ideologiyaya çevrilməsi üçün xeyli tədbirlər həyata keçirmişdir - dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması, xarici ölkələrə səfərləri zamanı azərbaycanlılarla görüşməsi, soydaşlarımızla əlaqələrin qurulması, azərbaycançılıq ideyası ətrafında Azərbaycan xalqının daha sıx birləşməsinə təkan verən amillər olmuşdur. Azərbaycançılıq ideyasının Azərbaycan xalqına çatdırılması Ulu öndərin fəaliyyətində həlledici yerlərdən birini tutmuşdur. Azərbaycançılıq ideyası bu gün də Azərbaycan xalqının diqqət mərkəzindədir və Prezident İlham Əliyev Azərbaycan xalqının azərbaycançılıq ideyası ətrafında güclənməsi, birləşməsi yönümündə çoxşaxəli və geniş fəaliyyət göstərir-bu gün azərbaycançılıq dünyada olan 50 milyon azərbaycanlını vahid ideya çətiri ətrafında birləşdirir.

Ümummilli lider elə şəxsiyyətlərdəndir ki, keçdiyi həyat yoluna nəzər yetirdikdə xalqımızın dünəni, bu günü, sabahı aydın görünür. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası Azərbaycanın ən yeni tarixində məhz onun adı və şəxsiyyəti ilə bağlıdır. Tarixdə hər birinin öz yeri olan dahi şəxsiyyətlərimizin istər dövlətçilik ənənələrimizin yaradılması və inkişafı, istərsə də Azərbaycan mədəniyyətinin intibahı ilə bağlı misilsiz xidmətləri fəxr və qürur istinadgahımızdır. Amma bu dahilərimizin içərisində xalqın Ümummilli lideri zirvəsinə çatan yalnız bir nəfər var-o da Heydər Əliyevdir. Ulu öndər öz əməlləri ilə, xalqa əvəzsiz xidmətləri ilə tariximizdə əbədiyaşarlıq qazandı-ölkəmizin inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir. Zəmanəmizin ən görkəmli siyasi xadimi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə Azərbaycanın yeni tarixində dövlətçiliyimizin möhkəmlənməsinə, müstəqilliyimizin əbədi olmasına verdiyi töhfələrə görə xalqımızın Ümummilli liderinə çevrildi. Ulu öndər xalqımızın qürur mənbəyi, qazandığımız bütün nailiyyətlərin səbəbkarı, uğurlu gələcəyimizin təməlini qoyan millət atasıdır.

Azərbaycan dövlətinin təməl prinsiplərindən biri varislik, yaradıcı təkamül prinsipidir-bu prinsip Azərbaycan xalqının söykənəcəyi mühüm prinsip kimi qeyd olunur və göstərilir ki, bizim yeni cəmiyyət quruculuğunda əsas vəzifələrimizdən biri keçmişimizdən ibrət dərsi almaqla cəmiyyətimizi irəli aparmaqdır. Varislik Azərbaycan xalqının əvvəlki tarixi dövrlərdə əldə etdiyi nailiyyətləri öyrənmək, prinsipial olaraq əldə edilənləri gələcək nəsillərə ötürməkdir. Bu, hakimiyyətin ideoloji, siyasi, iqtisadi baxımdan gələcək nəsillərə ötürülməsidir. Varislik mexaniki deyil, yaradıcı şəkildə, təkamül yolu ilə, inkarı inkar, yeni fəlsəfənin qanunları əsasında baş verir. Bu yaradıcı varislik nəticəsində biz bu gün Ümummilli lideri yaratmış olduğu təməl üzərində Azərbaycanı irəliyə aparırıq. Dövlət canlı orqanizm kimi inkişaf edir. Dövlət inkişaf etdikcə cəmiyyət də buna paralel olaraq inkişaf edir. Təbii ki, bizim qədimdən bu yana əldə etdiyimiz nailiyyətləri toplamaq, araşdırmaq və bunu həm tarixi nöqteyi - nəzərdən, həm də dövlətçilik baxımından cəmiyyətə çatdırmaq vacibdir. Bu baxımdan varislik çox mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan cəmiyyətində vətəndaş həmrəyliyi xalqımızı daxildən birliyə çağıran məsələdir. Vətəndaş həmrəyliyi həm də azərbaycançılıq ideyası əsasında birləşmək deməkdir. Vətəndaş həmrəyliyinə Azərbaycanda faktiki surətdə nail olunmuşdur. Məhz Ulu öndərin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda vətəndaş sülhünə nail olunmuşdur. Amma bu, mövcud prinsiplərdən biri kimi qalmalıdır. Heç kəs vətəndaş həmrəyliyinin pozulmasına gətirib çıxaran hərəkətlərə yol verməməlidir. Vətəndaş həmrəyliyinin pozulması, vətəndaş qarşıdurmasının yaranması Azərbaycan cəmiyyəti üçün təhlükələrə gətirib çıxara bilər-tarixi təcrübəmizdən ibrət götürməliyik: 1991 – 1993 - cü illərdə Azərbaycan cəmiyyətində vətəndaş həmrəyliyinin pozulması, daxili dartışmalar, qarşıdurmalar, silahlı münaqişələr və s. nəticə etibarilə Ermənistan tərəfindən ərazilərimizin işğal edilməsinə gətirib çıxardı. Vətəndaş həmrəyliyinin pozulması vətən, dövlət və xalq üçün təhlükədir. 1993 - cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda vətəndaş həmrəyliyinin bərpa olunması istiqamətində ciddi addımların atılması ilə müşayiət olundu və Azərbaycanda vətəndaş həmrəyliyi, vətəndaş sülhü bərqərar edildi. Konstitusiyanın qəbul edilməsi ilə Azərbaycan dövlətinin Heydər Əliyev prinsiplərinə söykənən qanunçuluğu meydana gəldi və həmin Konstitusiya eyni zamanda vətəndaş sülhünün hüquqi baxımdan təminatını həyata keçirdi. Konstitusiya, eyni zamanda dövlətçilik prinsiplərini, azərbaycançılığı özündə birləşdirdi. Vətəndaş sülhü Ulu öndərin müəyyən etdiyi mühüm bir prinsip kimi Azərbaycan vətəndaşlarının daimi nəzərindədir və gələcəkdə daha da inkişaf etdirilməlidir. Ulu öndərin siyasi uzaqgörənliyinin, prinsipiallığının və siyasi iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan verməklə, Azərbaycanda hüquqi islahatların yeni mərhələdə aparılmasına da geniş imkanlar açmışdır. Böyük strateqin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır.

Azərbaycan dövlətinin digər bir təməl prinsipi sosial ədalətdir. Cəmiyyətdə ədalətə nail olmadan ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyildir. Ədalət Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının təbiətinə, ruhuna uyğundur. Azərbaycan xalqı həmişə ədalətə tərəfdar olmuş, ədaləti müdafiə etmişdir.

*Ardı Səh. 10*

Əvvəli-Səh-9

# Tariximizin şərəfli Heydər Əliyev epoxası

Ədalətlilik ölkənin sosial-iqtisadi inkişafından ədalətli şəkildə xalqa pay düşməsi, Azərbaycan dövlətinin milli sərvətlərdən əldə olunan gəlirlərin insanlarımıza ədalətli şəkildə çatdırılmasıdır. Ədalətlilik, eyni zamanda cəmiyyətdə bazar iqtisadiyyatının yaratdığı ziddiyyətlərin hansısa bir zümrəyə ziyan vurmasının qarşısının alınması deməkdir-bu, Azərbaycan cəmiyyəti üçün olduqca əhəmiyyətli bir prinsipdir. Cəmiyyətdə ədalət olmasa, qarşıdurma qaçılmazdır. Bütün cəmiyyətlərin tarixi göstərir ki, ədalət prinsipi pozulduqda qarşıdurma meyilləri güclənir-bu isə xaosa və anarxiyaya gətirib çıxara bilər. Ədalət prinsipinin təmin olunması islahatlardan keçir. Daimi islahatlar, inkişaf yolu ilə, həmçinin cəmiyyətdə insanların təbəqələşməsi fonunda müxtəlif siyasi və iqtisadi vasitələrlə sosial ədalətin təmin olunması bu gün ölkəmizdə uğurla gerçəkləşir. Sosial ədalət dedikdə hər bir ailənin, hər bir vətəndaşın rifahının yaxşılaşdırılması, cəmiyyətin idarəçiliyində hər kəsin iştirakının təmin edilməsi, azad iqtisadi münasibətlərin təminatı və bu kimi digər məsələlər nəzərdə tutulur. Prezident İlham Əliyev deyir: ."Ölkəmizin qarşısında böyük vəzifələr durur. Bizim məqsədimiz Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə yaşayan hər bir insanın həyat şəraitini yaxşılaşdırmaq, çoxlu sosial problemlərin həllində inkişaf etməkdədir".

Ümummilli liderin müəyyənləşdirdiyi ideoloji prinsiplər Azərbaycan dövləti və bütün azərbaycanlılar üçün vahid bir prinsipdir. Siyasi əqidəsindən, dünyagörüşündən, fəaliyyətindən, partiyalılığından asılı olmayaraq Heydər Əliyev irsi, Heydər Əliyev yolu, Heydər Əliyevin müəyyən etdiyi prinsiplər hamı üçün eynidir. Bu prinsiplərin özü də zaman - zaman yaradıcı təkamül yolu ilə, varislik yolu ilə gələcək nəsillərə ötürülür və keyfiyyətcə yeniləşir. Bu prinsiplər, əslində, Azərbaycan Konstitusiyasının, qanunlarımızın istiqamətlərini müəyyən edir və milli - mənəvi dəyərlərə söykəndiyi, dövlətimizi, xalqımızı irəliyə apardığı üçün hər kəs tərəfindən qəbul edilir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətt, sosial - iqtisadi sahədə əldə etdiyimiz uğurlar və s. yaradıcı yolla inkişaf etdirilir və bu Heydər Əliyev ideyalarının inkişaf etdirilməsi deməkdir.

Ulu öndər öz ampluasının ən böyük alimidir və başqalarından onu fərqləndirən istedadı da elmi bilikləri ilə tandemdə bu dahini əlçatmaz edir. Heydər Əliyevin müəllimləri, onu yetişdirən xalq, mədəni – mənəvi irs işığa, xeyirxahlığa, insansevərliyə, ictimai tərəqqiyə yönəlik bir qaynaq idi və bu səbəbdəndir ki, ulu öndərin elmi də yaxşılığa, işığa, xeyirxahlığa xidmət göstərirdi. Başqa cür ola da bilməzdi-Heydər Əliyev elə bir ölkənin, elə bir xalqın yetirməsi idi ki, humanizm, insansevərlik, xeyirxahlıq yönündə minillik ənənələri var idi və Ümummilli lider də ləyaqətli bir oğul kimi təkcə bu ənənələri qəbul etməklə kifayətlənməmişdir, həm də onları qoruyub zənginləşdirmək yolunda qeyrət kəmərini belinə möhkəm bağlamışdır. Ümummilli lider böyük siyasətə gəldiyi ilk gündən onun qəbul etdiyi və ömrünün sonuna qədər sədaqətli qaldığı bir iş üsulu oldu: rasional təfəkkürün, dəmir məntiqin qanunlarına söykənən elmi idarəetmə üsulu. Təbii ki, bu üsulun əsasını elm, bilik təşkil edirdi. Ancaq doğma xalqına məhəbbətsiz, vətəninə bağlılıqsız bu elmin və biliyin nə qədər effektiv olacağını demək çətindir. Buna görə də, heç şübhə yoxdur ki, Heydər Əliyevin elmi idarəçilik sisteminin əsasını məhz onun Vətənə və millətə sevgisi təşkil edir. Bu yöndə də Heydər Əliyev Azərbaycan humanist fikrinin layiqli davamçısıdır. Belə ki, lap qədim dövrlərdən başlamış son zamanlara qədər Azərbaycan ictimai – bədii fikrində maarifçi hökmdar ideyası aktual olmuş və istər klassik şairlərimiz, istərsə də filosoflarımız, ruhani alimlərimiz tərəfindən həvəslə təbliğ olunmuşdur.

Ümummilli lider məhz belə bir elmi irsin yetirməsi kimi uzun əsrlər boyu yalnız utopiya kimi qəbul edilmiş ideyaların gerçəkləşdirilməsində müstəsna rol oynamışdır. Ulu öndər özünün humanist elmi ideyalarına söykənərək ölkəmizi qısa müddətdə cəhalət və ətalət girdabından çıxararaq elmin, qeyrətin, zəhmətin, son nəticədə isə milli səadətin işığına doğru apardı. Təsadüfi deyil ki, o zamanlar təkcə keçmiş Sovetlərdə deyil, bütün dünyada sosioloq alimlər ictimai – iqtisadi inkişafın Azərbaycan fenomenindən danışmağa başladılar. Əslində bu "Heydər Əliyev fenomeni" idi. Yaxşı bilirik ki, Kainatın yaranması barədə müxtəlif nəzəriyyələr var. Bunlardan biri - antik filosoflar tərəfindən irəli sürülən "ilkin təkan", digəri - çağdaş dövrdə alimlər arasında daha geniş yayılmış "böyük partlayış" nəzəriyyəsidir. Əgər keçən əsrin 70 – ci illərinin əvvəllərindəki Azərbaycanı kiçik bir Kainata bənzətsək, onun tərəqqisi üçün ilkin təkan da, böyük partlayış da, bütün bunlar məhz Umummilli liderin siyasət və idarəçilik elminin bəhrələridir. Qeyd etdiyimiz kiçik Kainat, bu böyük şəxsiyyətdən aldığı enerji ilə bu gün də "genişlənməkdə" davam edir. Çünki o qüvvəni davam etdirən, sönməyə qoymayan, getdikcə gücləndirən varisi- Heydər Əliyevin elmi idarəçilik üsulunun istedadlı və bacarıqlı varisi, cənab İlham Əliyev var. Deməli, Ulu öndərin elmi məktəbinin ideyaları yaşayır, xalqımızın rifahına, dövlətçiliyimizin möhkəmlənməsinə, dünya birliyində layiqli yerini tutmasına, ali beynəlxalq kürsülərdən səsimizin daha ucadan eşidilməsinə xidmət edir.

Ümummilli lider Azərbaycanda milli dövlətçiliyin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirərkən xalqın milli mentalitetinin səciyyəvi cəhətlərini də nəzərə almışdır. Ulu öndər özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını göstərmişdir. Ümummilli liderin mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu ictimai - iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürmüş və həyata keçirmişdir.

Ulu öndər intellekti xalq məfkurəsinin qaynaqlarından bəhrələnən, daha mürəkkəb, dinamik reallıqlarımızın mənimsənilməsi və dərkinin qüdrətli nəticəsi, siyasətçi şəxsiyyətinin özünütəsdiqinin vacib vasitəsidir. Ulu öndərin dövlətçilik fəaliyyətinin timsalında aydın oldu ki, müstəqilliyin möhkəmləndirilməsinə yönəlmiş milli inkişaf siyasətini yalnız intellektual düşüncə gərginliyi sayəsində reallaşdırmaq mümkündür. Real praktika da sübut etdi ki, məhz dərin tarixi təcrübəyə və geniş nəzəri bilik diapazonuna malik dövlət adamaları çox zaman bənzəri olmayan, yalnız milli reallıqları dərindən başa düşdükləri təqdirdə məsuliyyətli tarixi qərarlar qəbul edirlər. Tarixi həqiqət düşünən fərdin mənlik şüurunun formalaşmasında müstəsna rol oynayır, o, yüksək məsuliyyət hissilə dərk edilir. Belə bir keyfiyyət liderlik düşüncəsinin inkişafı üçün vacib şərtlərdən biridir, çünki o, tarixi təcrübə qazanmağın mühüm qaynaqlarından biridir. Əsl lider, əsl siyasətçi dövrün, zamanın, ilk növbədə xalqının tələbatlarına vaxtında həssas reaksiya verməyi bacarır. Azərbaycanın timsalında dünya birliyi bir daha inandı ki, xalqının müstəqilliyi uğrunda barışmaz mübarizə aparan Heydər Əliyev kimi lider ölkəsi ətrafında risk amilinin artdığı bir zamanda canlı praktikadan və yaradıcı təbii dəyərlərdən bəhrələnəndə cahanşümul enerji nümayiş etdirir, universal fəaliyyət subyekti kimi hərəkət edir. Ulu öndərin fəaliyyəti sivilizasiyalı dünyanı bir daha inandırdı ki, iri və qüdrətli dövlətlərin başçıları vaxtilə az tanınan Azərbaycan məkanında siyasət arenasında intellektual siyasətçi kimi xalqının rəğbətini qazanmış görkəmli lider və strateqlə iş görməli olacaqlar.

Müasir qlobal reallıqları düzgün qiymətləndirən Ulu öndər Azərbaycan xalqının müasir sivilizasiyada özünütəsdiqi məsələsinin həllində milli ideologiyanın rolunu xüsusi qeyd edir. Məlumdur ki, qloballaşma dövlətlərin sabit inkişafı, ərazi bütövlüyü və idarəetmə sistemlərinin rəvan işləməsi, iqtisadi - siyasi inteqrasiyada dövlətlərin, xüsusilə yeni demokratiyaların identikliyi kimi həyati problemləri ciddi təsirlərə məruz qoyur. Lakin bu prosesdə milli mənliyin identikliyini qoruyub saxlayan çox mühüm sarsılmaz ideoloji silah azərbaycançılıqdır. Azərbaycanın müstəqilliyinin qorunub möhkəmlənməsinin labüd ideoloji təməli və təminatı ölkənin hər bir vətəndaşının özünü əsl azərbaycanlı hiss etməsi, azərbaycanlılara məxsus şüur ilə hərəkət etməsidir. Soydaşlarımızın mənlik ruhunun saxlanmasında, onların dünya sivilizasiyasında bir millət kimi özünütəsdiqində azərbaycançılıq ideologiyasının danılmaz rolunu dəfələrlə vurğulayan Ulu öndər bu ideologiyanı heç bir fikir müxtəlifliyinə məruz qalmayaraq tövsiyə etmişdir. Ona görə də, dövlətçilik, vətənçilik kimi fenomenlər azərbaycançılıq ideologiyasından bəhrələnməli və bunlar da öz növbəsində azərbaycançılığın sosial - milli məzmununun saflığını qorumalıdır.

Ümummilli lider həmişə şəriştəsiz, xalqdan uzaq "liderləri" hakimiyyət üçün barışmaz qüsur saymışdır. Ulu öndərin liderliyi onun müstəqillik konsepsiyası ilə üzvi bağlıdır, çünki bütövlükdə hakimiyyəti idarə etmək konsepsiyası nə qədər yüksək nəzəri - praktik səviyyədə işlənsə də, bacarıqlı lider olmadan onu rasional həyata keçirmək mümkün deyildir. Vaxtilə De Qoll demişdir ki, "Böyük işləri heç zaman sözçülüklə başa çatdırmaq olmamışdır".

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu öndərin siyasi kursunu dönmədən, ardıcıl və layiqli şəkildə həyata keçirir. Bu siyasi kurs Azərbaycanın siyasi və iqtisadi qüdrətinin artmasına və onun beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə gətirib çıxarmışdır. Məhz bu siyasi kursun nəticəsidir ki, indi respublikamızda heç də bütün ölkələrdə mövcud olmayan ictimai - siyasi sabitlik hökm sürür. Ölkəmizdə siyasi sabitliyin mövcud olması və iqtisadi inkişafın Heydər Əliyev modelinin uğurla həyata keçirilməsi respublikamızın sosial - iqtisadi inkişafına gətirib çıxarmışdır ki, bu səbəbdən də müasir Azərbaycan Respublikası bu gün, sözün əsl mənasında, öz möhtəşəm inkişaf dövrünü yaşayır. Bu inkişafın əsasını qoyan Azərbaycanın ümummilli lideri Heydər Əliyevin parlaq siyasəti bu gün də uğurla davam etdirilir. Onun qoyduğu təməl üzərində qüdrətli dövlət qurulur və artıq Azərbaycan dünya miqyasında böyük nüfuza malik olan bir ölkə kimi tanınır. Və bu gün böyük qürur hissi ilə deyə bilərik ki, ölkəmiz bu yüksək səviyyəyə böyük azərbaycanlı və işıqlı şəxsiyyət Heydər Əliyevin müdrik siyasətini yeni dövrün tələblərinə uyğun, böyük əzmkarlıq və qətiyyətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin sayəsində ucalmışdır. Cənab İlham Əliyevin başçılığı altında Azərbaycan son illər ərzində istər siyasi, istər iqtisadi sahədə böyük uğurlara imza atmışdır ki, bu uğurlar da bugünkü Azərbaycanın reallıqlarıdır.

Prezident İlham Əliyev qanunçuluğun gələcək inkişaf üçün ən önəmli şərtlərdən biri olduğunu bildirir: "Azərbaycanda qayda - qanun var və hər bir vətəndaş qanunlara tabe olmalıdır. Azərbaycanda sabitliyin qorunması gələcək inkişafımız üçün ən önəmli şərtlərdən biridir". Dövlətin söykəndiyi qanun onun idarə edilməsinin əsas xətlərini və prinsiplərini müəyyən edir. Bu qanunlar olmasa, idarəçilik olmayacaq-idarəsizlik isə dövlətin gələcəyini təhlükə altına salar. Qanunçuluq Heydər Əliyevin dövlətçiliyə, dövlətin idarə olunmasına, dövlətin təməl prinsiplərinə verdiyi ən böyük töhfələrdən biridir. Qanunçuluğa söykənən cəmiyyətdə vətəndaşların hüquq və azadlıqlarının qorunması başlıca yerlərdən birini tutur. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Biz güclü, demokratik cəmiyyət qurmaq əzmindəyik. Bu cəmiyyətdə hər bir vətəndaş bütün haqlardan və azadlıqlardan istifadə etməli və onun bütün hüquqları və azadlıqları qorunmalıdır".

Ağılları, ürəkləri fəth edə bilmək yalnız zamanın fövqündə duran, sağlığında milyonların qəlbində ölməzlik məşəlini yandıran, onlara müstəqillik, azadlıq hissini bütün varlığı ilə yaşadıran, mənəvi nüfuz və böyüklük qazanan, millətinin iradəsini ifadə edən liderlərə nəsib olur. Tarix yaradan bu şəxsiyyətlərin həyatı bütöv bir xalqın taleyinə dönür... Dünya siyasət olimpinin ən parlaq və yüksək zirvəsində dayanaraq bəşəriyyətin tarixinə işıq salan belə görkəmli şəxsiyyətlərdən olan Ulu öndər Azərbaycanın xaos burulğanında çarpışdığı tarixi məqamlarda xalqın taleyinin müəyyənləşməsində mühüm rol oynamaqla adını tarixin yaddaşına qızıl hərflərlə həkk edərək ürəklərdə özünə əbədi abidə ucaltmışdır.

Dağın ucalığı və əzəməti uzaqdan daha aydın görünür. Böyük şəxsiyyətlər də belədir. Yalnız aradan zaman keçəndən sonra onların möhtəşəmliyi, xalqın tarixində və insanların ürəyində qoyduqları izlərin əbədiliyi, eləcə də həyatdan köçmələri ilə bağlı yaranmış itkinin ağırlığı daha bariz şəkildə meydana çıxır.

Böyük xalqların – istər ingilislərin, fransızların, almanların, istərsə də italyanların dahi müasirləri yoxdur. U. Çörçil, Ş.de Qoll, K.Adenauer və De Qasperi mənsub olduqları millətlərin dünya tarixinə ötən əsrin ikinci yarısında bəxş etdikləri nadir şəxsiyyətlər idilər. F. D. Ruzveltdən sonra ABŞ - da da dahi "kəsiri" mövcuddur. Azərbaycan xalqı kiçik də olsa, bu baxımdan unikaldır. Onun dahi müasiri vardır-həmin dühа Heydər Əliyevdir. Məhz bu dahi şəxsiyyətin xarizmatik liderliyi sayəsində mövcudluğu təhlükə altında olan dövlətçiliyimiz permanent xaos və böhran məngənəsindən çıxarılmış, ümummilli fəlakətin - vətəndaş müharibəsinin qarşısı alınmış, döyüş cəbhəsində məğlubiyyətlər seriyasına son qoyulmuş və atəşkəs rejiminin tətbiqinə nail olunmuşdur. O, ölkə həyatının bütün sahələrində quruculuğun, davamlı inkişafın və islahatların banisi olmuşdur.

Ümummilli liderin irsi milli quruculuq strategiyasıdır, bu irsin aktual mənası ulu öndərin praqmatik bir dövlətçi olmasıdır. Ona görə istər siyasi təbliğatda, istər tədris və təhsildə, istərsə də elmi sahədə əsas diqqət bu cəhətlərə yönəlməlidir. Bu gün respublikamızda Heydər Əliyev siyasəti davam edir-ölkəmizdə misilsiz dəyişikliklər baş verir, paytaxtımız yeniləşir, arxitektura görkəmi tamam təzələnir. İnsanların rifahı, yeni iş yerlərinin açılması, iqtisadi layihələrin gerçəkləşdirilməsi ölkə rəhbərinin daim diqqət mərkəzindədir.

Dövlət idarəçiliyinin zirvəsini fəth edən Ümummilli lider müasir, öz sözünü deməyə qadir olan güclü Azərbaycan dövlətini yaradan, dəhşətli çətinliklərdən çıxararaq möhkəmləndirən və bütün dünyaya tanıdan dahi siyasi strateq və taktik kimi tarixi yaddaşımızda silinməz iz qoymuşdur. Məhz Uu öndərin rəhbərliyi altında müstəqilliyimizin ilk illərində baş verən hərc - mərcliyin və dövlətdə idarəçiliyin itirilməsinin qarşısı alınaraq siyasi sabitliyin və dövlətin idarə edilməsinin bərpası dövrü başlanmışdır.

Vətən məfkurəsini, dövlətçilik ideyasını hər şeydən uca tutan bu böyük şəxsiyyət güclü Azərbaycan dövlətini yaratmaq üçün ilk növbədə yeni milli dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin əsasını qoymuşdur.

Böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazmışlar. Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman tarixi şəxsiyyətləri ilə fəxr etmişdir. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Ulu öndər tarixi prosesə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görmüşdür. Ümummilli lider Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

# Tofiq Yaqublu xəyanətini etiraf edə bilərmi?

*Mövcud reallıq ondan ibarətdir ki, Azərbaycanda azad və demokratik cəmiyyət formalaşıb. Hər kəs istədiyi formada fikrini söyləyə, mövqe bildirə, açıqlamalar verə bilir. Lakin yaradılan bu yüksək şəraitdən sui-istifadə edən fürsətçil, təxribatçı qüvvələr var. Daha doğrusu dağıdıcı müxalif ünsürlər küçə və meydanlarda icazəsis aksiyalar keçirməklə, sosial şəbəkələrdə milli və dövlətçilik maraqlarına ziddi statuslar paylaşmaqla ictimai rəyi çaşıdımağa və bununlada öz çirkin siyasi məqədlərini həyata keçirməyə çalışırlar. Bu halda insanların rahatlığına xələl gətirdiklərinə görə, hüquqi tədbir görüləndə dağıdıcı müxaliflər hay-küy qaldırıb, vay-şüvən salırlar.*



Lakin anlamırlar ki, sığındıqları və hər məqamda tapşırılarını yerinə yetirdikləri ABŞ-da, Avropada addımbaşı insanların polis zopasına, təhqir və şiddətinə məruz qalmaları adı hala çevrilib. Hər il ABŞ-da onlarla insan polisin açdığı atəş nəticəsində həyatını itirir və ya şikəst edilir.

### Dağıdıcı müxaliflər özlərini xarici dairələrdən asılı vəziyyətə salıblar

Dəfələrlə faktlar aşkarlanıb ki, 20 , 30 il azadlıqdan məhrum olmuş ABŞ, Franasa, İngiltərə, Almaniya vətəndaşı, nəhayət də günahsız olduğu üzə çıxıb. Yəni özünü demokratiyanın beşiyi sayan ABŞ və digər boğazadan yuxarı danışanların ölkələrində hüquqi sistemdə ciddi qüsurlar mövcuddur. Bunu isə Azərbaycanın dağıdıcı müxalifəti anlamır. Deməli ya onlar kardır, ya da kor, ən inandırıcı məqam isə onların maddi və mənəvi cəhətdən ABŞ-ın və ya Avropanın qaranlıq dairələrindən asılı olamalarıdır. Pul, para xatirinə okianın o tayında baş verən özbaşnalıqlara susqunluq nümayiş etdirirlər. Azərbaycanda isə xırda məişət söz söhbətini siyasi faciə kimi qabardıb, ətrafında şou yaradırlar. Şübhəsiz ki, bu fakt "Milli Şura"nın sədri Cəmil Həsnlinin, AXCP sədri Əli Kərimlinin, Müsavat başqanı Arif Hacılının, "Milli Şura"nın kitabsız, dəftərsiz üzvü Tofiq Yaqublunun təkcə vətənini yox, həm də hər şeylərini satmağa hazır olduqlarını göstərir. Sübuta yetirlən fakt ondan ibarətdir ki, T.Yaqublu digər əqidə dostları ilə müqayisə də bir qədər əhilləşmiş məxluqdur. Çünki onu kim çağırsa etiraz etmədən onun qucağında oturur.

### Yalan danışmaq, iftira söyləmək T.Yaqublunun həyat tərzidir

T.Yaqublu Azərbaycanın dövlət maraqlarına zərbə vurmaq üçün şeytanla belə əməkdaşlıqdan çəkinmir. Bəzən yazırlar ki, guya T.Yaqublu birinci Qarabağ müharibəsi iştirakçısıdır. Torpaq uğurunda düşmənlə ölüm qalım savaşı aparan şəxs satqınılıq edə bilərmi, təbii ki etməz. Deməli T.Yaqublu Azərbaycanın ərazi bütövlüyü uğurunda savaşda iştirak etməyib, sadəcə bu istiqamətdə yalan məlumatlar yayır. Yalan danışmaq, iftira söyləmək, şər və böhtanlar dilə gətirmək isə T.Yaqublu və onun əqidə yoldaşlarının həyat tərzidir. 30 illik işğala son qoymaq üçün Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşib düşmənə qarşı müharibəyə başlayanda Ə.Kərimli, T.Yaqublu, C.Hənli və digər məxluqlar milli ruha kölgə salmağa xidmət edən mövqe sərgiləmişlər. Dəfələrlə bütün siyasi partiyalar müharibə ilə bağlı beynəlxalq təşkilatlara müraciət imzalayarkən T.Yaqubılunun üzv olduğu Müsavat, "Milli Şura" müraciətə qoşulmaqdan imtina etmişdilər. Bax satqılıq və xəyanət budur. "Qarabağ müharibəsində iştirak etmişəm" deyən Qarabağ savaşına qoşulmaya, ən azı vətndaş olaraq orduya dəstək verməyə bilərmi? Görünən ondan ibarətdir ki, 44 günlük Vətən müharibəsi zamanıT.Yaqublu kimilər düşmənlə eyni cərgədə dayandılar.

### T.Yaqublu xalqın cəzasından xilas ola bilməyəcək

T. Yaqublunun dövlətə və xalqa düşmən kəsildiyini subut etməyə ehtiyac yoxdur. Yəni görünən dağa nə bələdçi. Təkcə bir faktı qeyd etmək lazımdır ki, bu təxribatçı və satqın məxluq bir qədər əvvəl "Zəngəzur dəhlizi Azərbaycanın avantürasıdır" deyə bildirmişdir. Eyni zamanda qeyd etmişdir ki, "ermənilərlə münasibətlər qurmaq üçün Azərbaycanın güzəştlərə getməsi vacibdir". İndi isə T.Yaqublu "Siyasi partiyalar haqqında " Qanuna şərhlər verməyə başlayıb. Daha doğru ona verilən təlimata əsasən Qanun haqqında şər və böhtan xarakterli statuslar paylaşır, açıqlanmalar verir. Bu günə qədər adı qanunsuz aksiyalarda hallanan siyasi şoumen T.Yaqublunun qanunu "qanunsuzluq", islahatları isə "mürtəce" adlandırması təəccüblü deyil. Çünki qərəzli olması, qrant müqabilində virtual səhnədə oynadılması ilə yanaşı, təbiət və mahiyyət etibarilə xaosa meyillidir, ziddiyyətdən qidalanır.İkincisi, "siyasi partiyanın gücünün seçkilərlə ölçüldüyünü" söyləyən T. Yaqublu özünü fakt qarşısında qoyur: bəli, seçkilər siyasi partiyaların gücünü, nüfuzunu-reytinqini göstərir. Bu günə qədər ölkəmizdə keçirilən bütün seçkilər bu reallığın təsdiqidir. Amma sual olunur, təmsil olunduğu radikal düşərgə hansı seçkilərdə qalib gəlib, yaxud xalqın etimadını qazanıb? Təbii ki, heç birində. Belə yerdə xalqın müdrik deyimi yada düşür: "utanmasan oynamağa nə var ki?!". Əminliklə demək olar ki, T.Yaqublu və onun kimi qərəzli mövqe tutanlar, şər və böhtanlar səsləndirənlər gec tez yalınız hüquqi müstəvidə deyil, xalq tərəfindən də sərt cəzalarını alacaqlar.

**İ.ƏLİYEV**



# Bəzi uşaqların yalan danışmasında günahkar KİMDİR?



***"Yalan hamı tərəfindən ayıblanan bir haldır. Azyaşlı uşaqların yalan danışması halları ilə tez-tez rastlaşırıq və bu valideynləri narahat edən məsələlər sırasındadır. Ancaq valideynlər uşağın xəyal gücü, təxəyyülü ilə nəyisə ifadə etdiklərini və ya yalan danışdığını ayırmalıdır. Çünki, 3-5 yaş arasındakı uşaqların xəyal gücləri çox zəngin olur". Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, uzman-klinik psixoloq Narınc Rüstəmova deyib.***



Onun sözlərinə görə, xəyali hadisələr, hekayələr danışırlar və danışdıqları şeylərə özləri də inanırlar: "Hətta bəzi uşaqların xəyali dostları olur. Valideynlər bu halı düzgün dəyərləndirməsələr uşağın yalan danışdığını düşünərək narahat ola bilərlər. "Mənim uşağım çox yalan danışır" deyə psixoloqa aparılan bir çox sağlıqlı uşaq var. Uşağın yalana danışmasına bəzən də yetişkinlərin ziddiyyətli halları səbəb olur. Həmçinin qeyd etmək lazımdır ki, uşaqlar yalana qarşı çox həssas olurlar. Bəzən valideynlər bu və ya digər şəkildə istəmədən də olsa uşaqları yalana ortaq edirlər. Ancaq bu doğru deyil, ana və ya ata öz yalanına uşağı ortaq etməməlidir. Uşaq bu cür yalanları sonra ana və atasına qarşı istifadə edir. Müəyyən dönəmdən sonra belə uşaqlar nəinki ata-anaya, hətta ətrafına, münasibət qurduğu insanlara da yalan deməyə başlayır.

Uşaq tez-tez yalan danışırsa bu önəmli bir haldır. Çünki bu ana-ata ilə uşaq arasındakı inamın sarsıldığının götəricisidir. Uşaq yalana valideynlərinin gözləntiləri öz gücünə uyğun olmadıqda və ya cəzadan qaçmaq məqsədi ilə əl ata bilər. Yalan söylədiyi üçün uşağı döymək olmaz, bu düzgün çıxış yolu deyil. Çünki, bunu etdiyinizdə və ya reaksiyanız sərt olduqda o həqiqəti deməkdən qorxacaq və yalanlara davam edəcək. Belə hallarda uşağın yalan demə sıxlığı, dozası diqqətə alınmalıdır və ehtiyac yaranarsa mütləq psixoloq dəstəyi alınmalıdır. Ancaq bu o demək deyil ki, davamlı yalan danışan uşağa valideyn cəza verməməlidir. Əvvəlcə valideyn övladı ilə bu barədə söhbət aparmalı, onun anlayacağı dildə ona izah etməlidir. Növbəti dəfə təkrarlanarsa artıq valideyin yüngül cəza üsulları tətbiq edə bilər. Məsələn, uşaq yalan danışdığına görə sevdiyi cizgi filminə əvvəlki kimi yox, 10 dəqiqə baxmağa icazə verilə bilər və ya 1 gün oyun saatlarını müəyyən dərəcədə azalda bilər və s. Bu proseslərdən sonra da problem korreksiya oluna bilmirsə, valideynlər zamanında psixoloqa müraciət etməldir.

Psixoloq söhbət aparmalı və məsələnin dərinliyinə enməlidir. Belə ki, terapiyalar sayəsində problem daha çox irəliləmədən müəyyən zamanda korreksiya oluna bilər".

## Mirzə Babayev – 110



# Gənclik təravətli unudulmaz səs

***Hamının sevilən müğənnisi olan Mirzə Babayev. Müğənni, memar, aktyor. Hər bir sahədə özünü doğruldan insan. Bütün zamanlarda xatırlanan və dinləyicilərin sevgisini qazanan müğənni. Arif insan idi, ona görə də bu dünyadan nakam köçmədi. Sənət dünyası ilə həzin musiqilərini zaman-zaman yaşatmağa nail oldu. İstedadı ilə zəhməti onu ucalığa yüksəltdi. Azərbaycan estrada musiqisinin banilərindən biri Mirzə Babayevin 16 iyul doğum günüdür.***







TƏHLİL

1913-cü ildə dünyaya gələn Mirzə Babayev ilk təhsilini Sənaye İnstitutunun memarlıq fakültəsində alıb. Mirzə Babayev Bakıda və Azərbaycanın digər şəhərlərində olan bir çox binaların və muzeylərin layihə müəllifidir. Mirzə Babayev müğənnilik fəaliyyətinə 40-cı illərin əvvəlində müharibədən qayıdan zaman, görkəmli bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrində başlayıb. 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına, məşhur müğənni Bülbülün sinfinə daxil olub. Mirzə Babayev 30-dan artıq filmdə rol alıb. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasında çalışıb. Azərbaycan respublikasının əməkdar artisti, xalq artisti, iki dəfə "Humay" mükafatı laureatı olub. Ömrünün 90-cı ilində dünyasını dəyişib. Belə bir tərcümeyi-hala malik müğənninin fəaliyyəti bu illərin dönəmində yaddaqalan hadisələrlə müşayiət olunur.

Yaşı 90-ı haqlasa da, gənclik hərarəti var idi Mirzə Babayevin qəlbində. Oxuyurdu, rəqs edirdi, sifətindəki təbəssüm tamaşaçını ovsunlayırdı. Mirzə Babayev 2003- ci il yanvarın 13-də, ömrünün 90-cı ilində dünyasını dəyişdi. Bu istedadlı sənətkarın ömür kitabını vərəqlədikcə Azərbaycanımızın musiqi tarixinin böyük bir dövrü gözlərimiz qarşısında canlanır. Bu tarixin Mirzə Babayevlə bağlı səhifələri daha maraqlı, daha zəngindir. Mirzə Babayevin tərcümeyi-halı bir əsrə yaxın bütöv bir dövrü əhatə edir.

Azərbaycan Dövlət Konservatoriyasında təhsil alarkən müəllimi hələ o zaman hiss etmişdi ki, Mirzə Babayevin həm də aktyorluq istedadı var. Elə bu istedaddan irəli gəlirdi ki, o, onlarla filmdə obraz yaratmışdı. Mirzə Babayev, həm də gözəl kino aktyoru idi. Azərbaycan kinosunda onun yaratdığı rolların özünəməxsus gözəlliyi var. Bu rolların epizodik və yaxud böyük həcmi olmasının o qədər də fərqi yoxdur. Mirzə Babayev yaratdığı obrazı duyur, öz içindən keçirir və tamaşaçıya onu bütöv xarakter kimi təqdim edirdi. "Dərviş Parisi partladır" filmində Məstəli şahı oynayır. Kamil Rüstəmbəyovun bu filmində aktyor çox orijinal bir obraz yaradıb. Hətta bu vaxta kimi Məstəli şahın teatrdakı ifaçılarından da çox-çox irəli gedə bilib.



Ümumiyyətlə, Mirzə Babayevin kino qəhrəmanları özünəməxsusluğu ilə seçilir. "Sevil", "Yenilməz batalyon" və onlarca digər filmlərdə aktyor yaddaqalan, gözəl obrazlara ekran həyatı vermişdir. Mirzə Babayevin artistizminə nikbin bir ruh hakim idi. Onunla işləyən rejissorlar deyirdilər ki, Mirzə Babayevlə işləyəndə heç yorulmaq bilmirdik. Çəkiliş meydançasında elə əhval-ruhiyyə yaradırdı ki, hamı məmnun qalırdı. Ekranda görünməsi ilə tamaşaçının ovqatına tamam yeni bir ruh gətirirdi. Bir sözlə, o yaratdığı obrazın əsl memarına çevrilirdi. "Onu bağışlamaq olarmı?" filmində Tərlanın mahnılarını, "O olmasın, bu olsun" filmində Məşədi İbadın bütün mahnılarını o yüksək koloritlə ifa etmişdir. Mirzə Babayevin müğənni kimi ifaçılığı ilə aktyorluğu ahəngdarlıq təşkil edir. "Dəli Kür" filmində Molla Sadığın qurduğu kef məclisi onun qeyri-adi səsi ilə yadda qalıb.

### TALEYİNİN MAHNISINI OXUDU

Bu gün onun çəkildiyi filmlərə, televiziya verilişlərinə baxdıqca bu böyük sənətkara xalq məhəbbətinin, onun musiqimizin inkişafındakı xidmətlərinin canlı şahidinə çevrilirsən. Dünya və milli musiqimizin elmi əsaslarına yiyələnən Mirzə Babayev tezliklə Azərbaycan estradasının ulduzlarından birinə çevrilmişdi. Harda işləməsindən asılı olmayaraq, Mirzə Babayev milli musiqimizin təbliğatçısı idi. Onu yaxşı tanıyır və sevirdilər. "Limanlar", "Saçlarına gül düzüm", "Sən uzaq, yaşıl ada" mahnılarını onun ifasında dinlədikcə insan ruhu, qəlbi təmizlənib, nəğməli bir dünya yaşanılır. Bütün mahnılarını sevərək oxuyurdu, xüsusi ilə "Limanlar"ı. "Məni Mirzə edən o mahnıdır, o mənim taleyimin mahnısıdır. Bunun tarixdə qalmasını istəyirəm", - M.Babayev duyğularını belə dilə gətirmişdi. Doğrusu, bu gün insan Mirzə Babayevin yoxluğuna inana bilmir. Elə hiss edirsən ki, yenə də hansısa konsert salonunda səhnəyə çıxıb gənclik həvəsiylə öz nəğmələrini oxuyacaq. Yaxşı ki, bu nəğmələrin yazıldığı lentlər, videolar saxlanılır və onlar kifayət qədərdir.

Oxuduğu mahnıların hər birində nikbin, həyatsevər bir ovqat yaradıb. Yaşının ahıl dövründə belə qəlbində gənclik hərarəti var idi. Tofiq Quliyev, Emin Sabitoğlu kimi bəstəkarların mahnıları onun ifasında ədəbilik qazandı. Müğənni Azərbaycan musiqi tarixində nadir ifaçılardandır ki, mahnıları uzun illər repertuarında yaşamışdır.

İllər ötür, zaman dəyişir. Amma onun ifasında səslənən mahnıların gözəlliyi öz ovqatını qoruyub saxlayır. Xalq artisti ona verilən bu adı bütün yaradıcılığı boyu doğrultdu. Gözəl ifasını təmənnasız olaraq çoxsaylı dinləyicələrinə, tamaşaçılarına təqdim etdi. Zövqlü dinləyicinin qəlbində əbədi abidəsini yaratdı. Bir əsrə yaxın ömrün sənət dünyasını yaşadı.

Kimlər gəldi, kimlər getdi, bu dünyadan, bu dünyadan!.. Arif olan nakam getməz, bu dünyadan, bu dünyadan...

***Nəzakət ƏLƏDDİNQIZI***



# “Türkiyə-Azərbaycan qardaşlığı daimidir, əbədidir"

**HƏRBİ EKSPERT ŞƏRH ETDİ**

***“Türkiyə dünyada – həm Balkanlarda, həm Şərqdə, həm Qafqazda, həm Orta Asiyada, həm də Afrikada böyük bir söz sahibinə çevrilib". Bunu SİA-ya Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin (TOHGMİB) sədri, hərbi eskpert Emin Həsənli deyib.***

O, 15 iyul Türkiyə Cümhuriyyətinin Demokratiya və Milli Birlik Gününün önəmi, Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri barədə danışaraq bunları deyib: ”15 iyun Türkiyə tarixinin ən şanlı səhifələrindən biridir. Türkiyə xalqı qətiyyətlə demokratiyanı, xalqın seçdiyi hakimiyyəti qorudu, öz hakimiyyətinə sahib çıxdı. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışından sonra həm İstanbul, həm də Ankarada xalq gecə ilə küçələrə axışdı, 250-dən artıq şəhid verərək qanları ilə Türkiyə demokratiyasını, cümhuriyyəti qorudular.

Türkiyədə FETÖ çevriliş etmək istəyirdi, Fətullah Gülən və onun orduda olan tərəfdarları böyük üsyan başlatdılar. Lakin ilk dəfə olaraq hakimiyyət çevrilişin qarşısını aldı və bu, böyük tarixi hadisə oldu. Azərbaycan dövləti də ilk anlardan Rəcəb Tayyib Ərdoğanı dəstəklədi, Azərbaycanda hərbi yönümlü təşkilatlar da həmin an səfirliyə yığışaraq Türkiyə prezidentinə dəstəyini verdilər və hələ də bu günə qədər tədbirlər keçirilir. Bu, çox böyük bir hadisədir, Türkiyənin inkişafı baxımından önəmlidir. Türkiyə ordusu qüdrətlidir, Türkiyə ordusunun müdafiə sənayesi potensialının 80%-dən çoxu yerli istehsaldır.

Türkiyə-Azərbaycan qardaşlığı daimidir, əbədidir. Hər iki ölkənin prezidentləri bu qardaşlığa çox böyük önəm verir. Bu qardaşlığın əsası Ulu Öndər Ümummilli Liderin “Bir millət, iki dövlət” ideyası əsasında qoyulub. 44 günlük müharibədə də Türkiyə Azərbaycanın yanında olub, Türkiyədə meşə yanğınlarında, zəlzələ fəlakətlərində bütün Azərbaycan vətəndaşları da Türkiyənin yanında oldu. Bu hadisələr onu göstərir ki, Türkiyə-Azərbaycan qardaşlığı sonsuza qədər davam edəcək və Türkiyəni heç bir kəs sarsıda bilməz. Xarici qüvvələrə arxalanan güclər çevriliş etməyə çalışsa da, bu çevrilişin qarşısı qətiyyətlə alındı və Türkiyəni müstəqil yolundan sarsıda bilmədi”.

***Aysel Naibli***

# “Beynəlxalq hüquq normaları hamı üçün eyni olmalıdır”



**KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ**

***“Fransa dövlətinin, xüsusilə, bu ölkənin prezidenti Emmanuel Makronun məkrli əməlləri sülhə, əminamanlığa, demokratiyaya təhdid olmaqla, bəşəriyyətə qarşı hörmətsizlik və xəyanətdir”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məslidin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.***

Komitə sədri vurğulayıb ki, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvü kimi Fransa dünyada təhlükəsizliyin təmin edilməsinə, müharibələrin, münaqişələrin qarşısının alınmasına cavabdeh olduğu halda, əksinə, bunun əleyhinədir və terrorun, təxribatın, qarşıdurmaların tərəfdarı rolunda çıxış edir və uzun illər Azərbaycana münasibətdə biz bunu gördük, bu gün də bu çirkin əməllərin şahidiyik.

“Makron ermənipərəstliyi ilə seçilir və bunu açıq-aydın bildirir. O, Ermənistana dəstək verir, təcavüzkar ölkəni silahlandırır. Digər tərəfdən müharibənin əleyhinə olduğu görüntüsü yaradaraq, Ukraynanın yanında olduğunu bildirir. Ancaq nədənsə unudur ki, onun verdiyi silahlar və yardımlar, Erməni kilsəsinin xeyir-duası ilə təşkilatlandırılan erməni batalyonu tərəfindən ukraynalı dinc əhalinin qətlinə yönəldilir. Göründüyü kimi Makron Ermənistanı silahlandırmaqla həm Azərbaycana, həm də Ukraynaya qarşı təcavüzkarlıq siyasəti yeridir. Çox təəssüflər olsun ki, beynəlxalq təşkilatlar, böyük dövlətlər bunu görməməzliyə vurur və Makron kimi təcavüzkar, ikiüzlü rəhbərin əməllərinə lazımi qiymət vermirlər. Beynəlxalq hüququn normalarına, dövlətlərin təhlükəsizliyinə, sülhə zidd olan belə hallar mütləq öz qiymətini almalıdır.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ermənistan bölməsinin qaçaqmalçılıq əsasında Laçın dəhlizində nəqliyyatın hərəkətinin dayandırılması və qaçaqmalçılıq cəhdlərini əks etdirən videonun yayılması bu təşkilatın imicinə çox böyük zərbədir. Beynəlxalq təşkilatın belə bir həssas nöqtədə yol verdiyi səhvlər bağışlanmazdır və Azərbaycanın bu sahədə həyata keçirdiyi tədbirlər qanunauyğun, təqdirəlayiqdir. Komitə qanunlarımıza zidd fəaliyyətinə son qoymalı, səhvlərindən nəticə çıxarmalı, beynəlxalq missiyasına hörmətlə yanaşmalı reallıqları dərk edib Azərbaycanın tələblərini yerinə yetirməlidir”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***



**İLHAM**

# TV-lərlə tamaşaçı arasında dərin uçurum

***Bu gün televiziya məkanında müxtəlif səpkili zövqüsüz, bayağı verlişlər yayımlanır. İstəsəndə, istəməsəndə həmin verlişlərə baxmaq məcburiyyətində olursan. Çünki, TV-lər elə bir gücə və imkana malikdirlər ki, istəməsən belə çağırılmamış qonaq kimi yuxarı başda oturub, səs -küy salır. Hərdən səbr edib, kinolara baxıram. Ancaq bir şey başa düşə bilmirəm. Heç bir istedadı, təcrübəsi olmayan , lakin rejissorun qılığına girməklə filmə çəkilən bir xanım aparıcı rolda çıxış edir. Əcəyib-qərayib hərəkətləri ilə kinonuda, həm də tv-ləri gözdən salır. Tamaşıçı da küsür, inciyir, nəhayət TV-lərlə tamaşaçı arasında dərin uçurum yaranır. Sonrakı mərhələ də insanlar üz tuturlar sosial şəbəkələrə. Sosial şəbəkələr ki, var basdırılmış minadır, partladığı halda neçə-neçə ailə dağılır, insanlar həyatlarından olur, həbsə düşüb, ömrünü dəmir barmaqlıqlar arasında keçirənlər də olur. Bu baxımdan demək olar ki, TV-lər kimi sosial şəbəkələr də bir bəladır ki, keçib milyardlarla insanların boğazına.***

Nə qədər əcaib-qəraib, əlləm-qəlləm işlər və əməllər varsa hamısını sosial şəbəkələrdə görmək olar. Bir də görürsən, evində yemək bişirən qız tullana- tullana hərəkətlərini sosial şəbəkələrə yükləməklə, dostlarından like tələb edir. Restoranda, kafedə və ya küçədə səviyyəsizlik edib, min hoqqadan çıxanlar da utancverici əməllərini çəkib Facebbok-a, Whatcapp-a, Twittere yükləyib paylaşırlar. Sosial şəbəklər vasitəsi ilə texniki avadanlıqlarını, ev əşyalarını, hətta böyrəyini, ciyərini, eləcədə başqa-başqa şeylərini satışa çıxaranlarda olur. Olsun, özləri bilər. Məni narahat və təccübləndirən məsələrdən biri də, odur ki, sosial şəbəklərdə elə şəxslər olur ki, sadə, təmiz, vicdanlı insanların heysiyyatı ilə oynayırlar. Deyəki, sosial şəbəklər vasitəsi ilə elan verilir ki, filan idarə, müəssə, təşkilat, restoran, kafe, otel və digər yerlər işçi tələb edir. Yayılan elanda telefon nömrəsi və ünvan göstərlir. Olur ki, şirkət adı ilə çıxış edən “İşə düzəltmə” bürosunun rəhbəri iş axtarışı ilə onun qəbuluna gələndən ilk öncə 15-20 manat pul tələb edir. Biçarə iş axtaran bəlkədə, ailəsinin sonuncu maliyyə vəsaiti olan 15-20 AZN -i 550-600 AZN aylıq maaş ala biləcəyi iştəhasına görə, piyli məxluqa ödəyir. Bundan sonra işin düzəlməyəcəyi şübhəsizdir, ödədiyin pulu da geri almaq mümükünsüzdür. Bir neçə dəfə, “İşə düzəltmə” bürosuna ayaq döyəcəksən, hər dəfə də “bir qədərdə dözün, filan idarədə, müəssədə və ya kafedə iş yeri boşalır, sizi ora işə götürəcəklər” deyib, səni başlarından edəcəklər. Nəhayət get-gəldən yorulacaqsan “cəhənnəm olsunlar, o pulda haramları olsun” deyib, başqa iş yeri axtarmağa gedəcəksən.Əndirabadi məqamlardan biridə odur ki, iş elanı verən kafe, restoran, idarə və müəssə rəhbərləri əsasən xanımlar arasında seçim aparkərən, onların boyununa, buxununa, yaşınına, eləcədə xarici dil bilməsinə önəm verirlər. Xanımların yaşlarıda 30-u keçməməlidir. Dövlət vəzifələrinə təyinatda, beynəlxalq miqyaslı şirkətlərdə işə düzəlmək üçün ali təhsilli oğlan və qızların xarici dil bilməsi, eləcədə kompyuterdə iş bacarmalarına önəm verilməsi başa düşüləndi.

Ancaq kafedə, restoranda qab yuyandan, təmizlik işləri aparandan, xarici şirkətlərin tikinti obyektlərində işləmək istəyən fəhlədən, fabrik və zavodlarda çalışmaq arzusunda olanlardan ən azı bir xarici dil bilməsi tələbinin qoyulması anlaşılan deyil. Ən azı ona görə ki, biz Azərbaycanda yaşayırıq və işçi ilə işə götürən arasında müqavilələr Azərbaycan qanunlarına və Azərbaycan dilində aparılmalıdr. Fəhlədən, qabyuyandan, təmizlik işi aparmaq istəyənlərdən xarici dil bilməsi tələbinin irəli sürülməsi kobud qanun pozuntusudur. Lakin görünən odur ki, bəzi vəzifə sahiblərinin və iş adamlarının öz qanunları və qaydaları var.Təbii ki, bu kimi anormal hallar uzun müddət davam edə bilməz. Özlərindən qaydalar tətbiq edib, iddialı mövqe tutanlar mütləq cəzəlanmalır. Çünki, qanunvericiliyə gözə, cəzasızlıq cinayətin törədilməsinə gətirib, çıxarır. Azərbaycan dövləti hüquqi, demokratik dövlətdir. Dövlətimizin bir Ana Yasası və bir qanunvericiliyi var, hər kəs bu qanunlara əməl etməlidir.

# “Qarabağda “erməni soyqırımı” olacağından danışmaq gülüncdür”



*Cənubi Qafqaz Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov Bakı və İrəvan arasında yaxın gələcəkdə danışıqlar prosesinin perspektivləri barədə “Moskva-Baku” portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.*

**- İyulun 15-də Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin görüşü keçiriləcək. Ermənistan tərəfinin ziddiyyətli bəyanatları hələ də səslənir. Bəziləri Prezident İlham Əliyevin son həftələr Ermənistana qarşı bəyanatlarının daha yumşaq olduğunu vurğulayır...**

- Azərbaycan və Ermənistan liderləri arasında Brüssel danışıqlarından qlobal irəliləyişlər gözləmirəm. Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistana qarşı ritorikasını yumşaltması yalnız Əliyevin parlaq diplomat olmasından xəbər verir. O, dönə-dönə qeyd edir ki, İrəvan Qarabağı Azərbaycan ərazisi kimi tanımağa razılaşıb. Öz növbəsində, üstüörtülü təkan- Azərbaycanın siyasəti də daxil olmaqla, bu, Bakının təklif etdiyi prinsiplər əsasında İrəvanın sülh müqaviləsi imzalamasına gətirib çıxaracaq.

Rusiya Xarici İşlər Nazirliyi Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında aparılan danışıqlardan sonra irəliləyişi qeyd edib. Hesab edirəm ki, bu müsbət tendensiyadır.

Moskva münaqişənin sülh yolu ilə, yekun həllində maraqlıdır. Həmişə nəzərə almağa dəyər ki, Rusiya Federasiyası vəziyyətdən daim xəbərdardır. İstənilən halda danışıqlar prosesində hələ əldə olunmayan irəliləyiş vacibdir. Təbii ki, mən Rusiya paytaxtında sıçrayışa ümid etmək istərdim.

Azərbaycan Moskvada sülh müqaviləsi imzalanmasının əleyhinə deyil, biz müttəfiqik, amma İrəvan yorğanını özünə çəkir, Qarabağdan uzaq olan Avropanın, ABŞ-ın erməni-azərbaycan prosesindəki fəallığına israrla töhfə verir.

Mən rəsmi Bakının mövqeyini görürəm, onun üçün indi əsas olan nəticə əldə etməkdir, hansı platformada- bu o qədər də vacib deyil. Çünki Ermənistanla münasibətlərin yekun şəkildə normallaşması Azərbaycanın milli maraqlarına uyğundur.

Fikrimcə, elə Brüsseldə Azərbaycanın milli maraqlarına və ilkin olaraq Moskvanın yaxından nəzarəti altında İrəvanın imzaladığı bütün müqavilələrə əməl olunacaq. Eyni zamanda, sülh müqaviləsinin imzalanması ehtimalı azdır. Çox güman ki, Brüssel danışıqları aralıq görüşdən başqa bir şey olmayacaq.

**- Eyni zamanda, bir həftədir ki, Ermənistan və Azərbaycan arasında müxtəlif strateji nöqtələrdə- Laçın yolu ərazisində, Naxçıvanla sərhəddə atışmalar davam edir...**

- İrəvanı 2020-ci ildə imzalanmış razılaşmalar qane etmir. O, Laçın yolunda Azərbaycan sərhəd-keçid məntəqələrinin olmasından razı deyil. Etiraf edirəm ki, sülh müqaviləsinə qədər İrəvanın imzaladığı hər hansı saziş və sənədlər Ermənistan tərəfindən eyni şəkildə yerinə yetirilməyəcək.

**- Qarabağ ermənilərinin məsələsi ən çətin məsələ olaraq qalır. Aydındır ki, Ermənistan bunu bütün platformalarda tamamilə manipulyasiya edir, guya Azərbaycanın hazırladığı ermənilərin hansısa “soyqırımı”ndan danışır.**

- Qarabağın “erməni soyqırımı”ndan danışmaq sadəcə gülüncdür. Xocalıda azərbaycanlıların dəhşətli soyqırımını və erməni separatçıları tərəfindən mülki azərbaycanlı əhalinin məhv edilməsini xatırlayaq. Eyni zamanda, əks istiqamətdə- guya azərbaycanlıların da ermənilərə qarşı soyqırımı həyata keçirməsinə dair heç bir sübut yoxdur.

Bakı Ermənistan-Azərbaycan nizamlanması mərhələsinin indiki vəziyyətində Qarabağ ermənilərinin bütün hüquqlarını təmin edəcəyini mütəmadi olaraq bəyan edir.

**- Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ötən gün yenidən Rusiya sülhməramlılarını və KTMT-ni tənqid edib. O, Vaşinqtonda Ermənistan ordusunda islahatlar, təhlükəsizlik məsələləri, atom elektrik stansiyasının tikintisi ilə bağlı görüşlər keçirir. Əslində Rusiya-Ermənistan münasibətlərinin gündəmində olan bütün məsələlər üzrə.**

- Ermənistanın, Armen Qriqoryanın və onun kimilərinin indi etdikləri hər şey Ermənistan Respublikasının özünün milli maraqlarına və Rusiya Federasiyasının maraqlarına ziddir.

Açığı, belə bəyanatlar Ermənistan ərazisində Amerika bazalarının peyda olmasından uzaq deyil. Uzun müddətdir ki, biolaboratoriyalar var idi, indi hərbi bazalar növbədədir. Belə siyasətin məqsədi Rusiya ilə münasibətləri kəsməkdir.

**- Belə görünür ki, Ermənistan rəhbərliyi artıq Fransadan sürünərək çıxmır. Dünən Ermənistan Milli Assambleyasının sədri Parisdə Fransa parlamentinin iki palatasının sədrləri ilə görüşüb. Senatın spikeri kifayət qədər açıq şəkildə bəyan etdi ki, o, İrəvanı Qarabağ erməniləri ilə bağlı mövqeyində bundan sonra da dəstəkləyəcək.**

- Fransanın indi dünyada miqyasında özünü göstərəcək heç nəyi yoxdur və Qafqazda siyasi reputasiyası baxımından ən azı “müsbət” nəsə var. Biz bunu belə qəbul etməliyik.




Rusiyalı politoloq: Digərlərindən fərqli olaraq, Azərbaycan, Rusiya, və Türkiyə Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlıdır








**- Bir gün əvvəl Türkiyə prezidenti Rusiya Federasiyası, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli razılaşmalarına əsasən, Rusiya sülhməramlılarının 2025-ci ildə Qarabağı tərk etməli olduğunu və Moskvanın razılaşmaları yerinə yetirməsini gözlədiyini söylədi. Bu gün Rusiya-Türkiyə münasibətləri fonunda belə bəyanatı necə qəbul edirsiniz?**

- Ənənəvi olaraq Rusiya-Türkiyə münasibətlərində çoxlu incəliklər var. Bəli, Türkiyə Rusiya Federasiyası üçün müəyyən sahələrdə tərəfdaş kimi önəmlidir, lakin bunun asan tərəfdaşlıq olduğunu demək olmaz. Amma əminəm ki, bir-birinə böyük hörmətlə yanaşan iki ölkənin liderləri fonunda Moskva və Ankara ənənəvi olaraq kompromis həll yolları tapacaqlar. Bu dəfələrlə sübut olunub. Əminəm ki, Ermənistan-Azərbaycan prosesində də belə olacaq. Bundan başqa, həm Rusiya, həm də Türkiyə üçün Cənubi Qafqazda sülhün yekun şəkildə bərqərar olması vacibdir və Moskva və Ankara regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpasında, hamı üçün faydalı olan iqtisadi layihələrin həyata keçirilməsində maraqlıdır. Deməli, ümumilikdə Rusiya və Türkiyə Zaqafqaziyaya eyni istiqamətdə baxırlar.

***Tərcümə - Elçin Bayramlı***

# Prezident nöqtə qoydu: Əgər qanunlarımıza hörmət etməsələr...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*



## *Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlər qanunlarımıza hörmət etməyə borcludur*

***“Azərbaycanda işləyən xarici şirkətlər və yerli şirkətlər Azərbaycan qanunlarına hörmət etməlidirlər. Hörmət etməyəcəklərsə, onların fəaliyyəti burada mümkünsüz olacaq. Baxmayaraq ki, pay bölgüsü haqqında saziş əsasında xarici investor Gədəbəydəki qızıl yataqlarını istismar edir, baxmayaraq ki, uzun illərdir burada çalışır, Azərbaycan qanunlarına, ekoloji tarazlığa - bütün bunlara hörmət edilməlidir”.***







Bu sözləri Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Gədəbəydə baş verən hadisələr barədə danışarkən deyib.

Prezdent bildirib ki, dövlət şirkəti “AzerGold” da qızıl yataqları istismar edir: “Amma mənə verilən məlumata görə, o sahədə bütün ekoloji normalara riayət edilir. O cümlədən yerli icmalarla təmaslar qurulub, müxtəlif humanitar aksiyalar keçirilir, insanlar kütləvi surətdə işə cəlb olunub. Bax, bu yanaşma Azərbaycan şirkəti tərəfindən göstərilən yanaşmadır. O yanaşma isə xarici şirkət tərəfindən göstərilən yanaşmadır. Bu, dözülməzdir. Xarici şirkətin nümayəndələri də dəvət edilməlidirlər. Əgər bu günə qədər dəvət edilməyiblərsə, Nazirlər Kabinetinə onlar izahat verməlidirlər. Yenə də deyirəm, bir həftə ərzində mənə və ictimaiyyətə məlumat verilməlidir. Orada təbiətə, insanların sağlamlığına zərrə qədər təhlükə varsa, o fəaliyyət dayandırılmalıdır. Vəssalam!”, - dövlət başçısı vurğulayıb.

### Ölkəmizə yatırım edən xarici şirkətlər

Ümumiyyətlə, yüksək maliyyə təminatı hər bir ölkənin iqtisadi inkişafında mühüm amillərdən biri, bir çox hallarda birincisidir. Son illər Prezident İlham Əliyevin imzaladığı sənədlər əsasında maliyyə resurslarının Azərbaycan iqtisadiyyatına sərbəst çıxışı təmin edilib. Keçdiyi yola nəzər saldıqda görürük ki, bu dövrdə milli iqtisadiyyatımızda - istər kənd təsərrüfatı, istərsə də sənaye sahələrində - çox sayda layihələr dövlət və özəl investisiyalar hesabına maliyyələşdirilib. Maraqlıdır ki, iqtisadiyyatımıza investisiyalar əksər hallarda xaricilər tərəfindən yatırılır. Bəs onları Azərbaycana vəsait yatırmağa nə təşviq edir?

Əlbəttə ki, birinci əlverişli investisiya mühiti bu imkanı verir. Ümumiyyətlə, 1995-ci ildən indiyədək Azərbaycana 296,3 milyard dollardan çox sərmayə qoyulub ki, bunun da 150,4 milyard dolları xarici investisiyalardır. Ölkəmizdə daxili və xarici investisiyaların yönəldildiyi sahələrin siyahısı kifayət qədər uzundur. Təbii ki, investorlar öz pullarını perspektiv görmədikləri sahəyə yatırmazlar. Onlar əvvəlcə geniş araşdırma aparır, riskləri, perspektivləri, gəlirləri və çıxarları hesabladıqdan sonra yatırım barədə planlarını işə salırlar.

### Xarici şirkətlər Azərbaycana niyə maraq göstərir?

Əgər yerli və xarici investorların Azərbaycan iqtisadiyyatının müəyyən sahələrinə investisiya qoymağa sövq edən amillər barədə danışsaq deyə bilərik ki, buna ilk növbədə əlverişli investisiya mühitini misal çəkə bilərik.

Azərbaycan dövləti müstəqilliyinin ilk illərindən bəri milli iqtisadiyyata müxtəlif mənbələrdən investisiyaların cəlb edilməsi üçün güclü siyasi iradə nümayiş etdirir. Beynəlxalq arenalarda, simpoziumlarda, sərgilərdə - hər istiqamətdə bunun üçün çalışılır. Dövlətimizin bu istiqamətdə yürütdüyü siyasəti ölkədə biznes mühitinin ardıcıl optimallaşdırılmasında, qanunvericilik bazasının təkmilləşdirilməsində, yeni çağırışlara uyğun qərarların qəbulunda da özünü göstərir.

Davamlı inkişaf edən, üsyan və inqilablardan uzaq olan, habelə işğalçılıq siyasəti yürütməyən sülhsevər ölkələr daima investorların marağını cəlb edir. Xüsusilə daxili siyasi sabitlik bu məsələdə əhəmiyyətlidir. Azərbaycan məhz belə bir dövlətdir. Burada cəmiyyət hakimiyyətlə həmrəydir və bu həmrəylik özünü sabitlikdə, vətənin müdafiəsində, seçkilərdə - demək olar ki bütün sahələrdə büruzə verir.

### Həm ecazkar təbiət, həm müasir infrastruktur

Azərbaycanın yüksək investisiya cəlbediciliyini şərtləndirən digər mühüm amil ölkəmizin müasir infrastruktura malik olmasıdır. Azərbaycanda müasir yol-nəqliyyat və logistika infrastrukturu mövcuddur ki, onun vasitəsilə istehsal olunan məhsullar tez və rahat şəkildə dünya bazarına çıxarıla bilir.

Azərbaycan hökuməti ölkənin investisiya cəlbediciliyini artırmaq üçün islahatlar aparılır, bu istiqamədə mümkün bütün imkanlara yol açılır. Bu məqsədlə Prezident İlham Əliyevin sərəncamı ilə, dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan sahibkarlıq subyektlərinin vahid prinsiplər əsasında idarə edilməsi məqsədilə onların fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəliliyinin artırılması, rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığı və davamlılığı ilə bağlı Azərbaycan İnvestisiya Holdinqi yaradılıb.

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərə sərmayə qoymaq istəyən yerli və xarici şirkətlərin sayı da günü gündən artır. Bir çox xarici şirkət işğaldan azad edilmiş ərazilərdə müxtəlif layihələrin həyata keçirilməsində maraqlıdır. Ölkəmiz də işğaldan azad edilmiş torpaqların bərpasında dost ölkələrlə sıx əməkdaşlıq yolunda mühüm addımlar atır. Bərpa prosesinə ilk növbədə qardaş Türkiyədən şirkətlər cəlb edildi, daha sonra prosesə İtaliya şirkətləri də qoşuldu. Hazırda 10-dan çox ölkəni təmsil edən 50-dən çox xarici şirkət işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı layihələrə qoşulmaq barədə dövlətə müraciət ünvanlayıb.

Ölkəmizdə investisiya mühitinin optimallaşdırılması istiqamətində digər tədbirlər də həyata keçirilir və bütün bunların uğurlu nəticələri respublikamıza müxtəlif mənbələrdən cəlb edilən investisiyaların həcminin artmasında özünü göstərir. Lakin xarici şirkətlərin ölkəmizdə investisiya qoyması onların burada ixtiyar sahibi olması demək deyil. Fəaliyyətləri Azərbaycan Respublikasının qanunları çərçivəsində olmalı, iş prosesində əhalinin sağlamlığını, təhlükəsizliyini, dincliyini təhlükəyə atacaq addımlar atılmamalıdır. Qanun şahdır və hamı ona boyun əyməlidir.

***Lalə Mehralı***





SƏS
15 iyul
2023-cü il

# DİQQƏT: Qulaqlıqlarla bağlı yeni faktlar üzə çıxdı!



*Qulaqcıqların zərəri barədə SİA-ya lor-cərrah Nigar Muradova danışıb: "Qulaq içi və qulaq üstü qulaqlıqlardan uzunmüddətli istifadə həm infeksiya, həm də eşitmə itkisi riskini artırır. Son dövrlər daha çox istifadə olunan naqilsiz qulaqlıqların yaratdığı maqnetik sahənin də insan beyninə ciddi zərərli təsiri haqda araşdırmalar aparılmaqdadır. Xarici qulaq keçəcəyi hava sirkulyasiyası olan mühitdir. Qulaqlıq istifadəsi zamanı xarici qulaq keçəcəyi tıxanır və orada olan havasız, isti nəmli mühitdə bir çox infeksiya və göbələklər inkişaf edir ki, bunun nəticəsində də qulaq xəstəlikləri meydana gəlir.*

**HƏKİM AÇIQLADI**





Başqasının qulaqlığından istifadə infeksiya və göbələyə yoluxma ehtimalını artırır. Hər bir halda səsin kənar (sərbəst mühit) qaynaqdan eşidilməsi sağlamlıq baxımından daha düzgündür".

Həkim qeyd edib ki, müraciət edən pasiyentlərin qulaqla bağlı problemləri müxtəlifdir: "Yaşa və fəslə görə dəyişir. Qışda daha çox otitlər, yayda daha çox hovuzdan, dənizdən sonra xarici otitlər və otomikozlar müşahidə edilir. Yaşlılarda və orta yaşlılarda daha çox eşitmə siniri mənşəli xəstəliklər, uşaqlarda daha çox seroz və irinli orta otitlər olaraq qruplaşdırıla bilər".

N.Muradova qulaqcıqlarla bağlı tövsiyəsində deyir: "Tövsiyəmiz 60/60 prinsipinə riayət etməkdir. Yəni qulaqlıq istifadə edərkən səs səviyyəsi 60 desibeli, istifadə müddəti isə 60 dəqiqəni keçməməlidir. Uzunmüddətli qulaqlıq istifadəsi eşitmə sinirində bərpası mümkün olmayan zədələnmələrə gətirib çıxarır".

***Aysel Naibli***

# Amerikalı aktyor aliment pulundan ŞOKA düşüb...



Amerikalı aktyor Kevin Kostnerlə həyat yoldaşı Kristin Baumqartnerin boşanması deyəsən səs-küysüz ötüşməyəcək. Məsələ burasındadır ki, ötən çərşənbə axşamı hakim aktyorun həyat yoldaşına üç uşağın saxlanması üçün ayda 129,755 dollar aliment ödəməli olduğuna qərar verib.

Məhkəmənin bu qərarı aktyoru narahat edib. Çünki aylıq məbləğin bu həddə olmasını gözləmirdi. Artıq aktyor boşanmaqda olduğu həyat yoldaşı ilə bu məsələni müzakirə edəcəyini ylan edib. Məhkəmənin daha bir qərarına əsasən, Kostner və Baumqartner dərman, idman klubları və müxtəlif dərsdənkənar fəaliyyətlərin xərclərini yarıya böləcəklər.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## "Yuventus" açıqladı: Super Liqa layihəsindən vaz keçdi

Nəhayət ki, gözlənilən baş verdi. "Yuventus" futbol klubu Super Liqa layihəsindən ayrıldı. Turin klubunun rəsmi saytı bu barədə məlumat yayıb.İtaliya klubu artıq müvafiq prosedura başladığını açıqlayıb. "Yuventus" 2021-ci ilin aprelində Super Liqanın yaradılmasını elan edən 12 klub arasında idi. Turnirin təsisçilərinin çoxu həmin ay layihədən çıxıb. Beləliklə, layihədə təkcə



İspaniyanın "Real" və "Barselona" klubları qalıb

## Bir gündə yol qəzalarında 5 nəfər ölüb



Respublikanın avtomobil yollarında 5 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 5 nəfər ölüb, 8 nəfər isə xəsarət alıb. Narkotiklərlə əlaqəli 42, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 4 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 69 nəfər saxlanılıb.

Dünən ölkə ərazisində qeydə alınan 71, əvvəlki dövrlərdən bağlı qalan 11 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.Məlumatda deyilir ki, axtarışda olduğuna görə ümumilikdə 98, o cümlədən borclu şəxs qismində axtarışda olan 83 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

## Qubada keçmiş məhkum işlədiyi kafedən oğurluq edib



Qubada oğurluq hadisəsi olub. Quba Rayon Polis Şöbəsinə rayon ərazisində oğurluq olması barədə məlumat daxil olub. DİN-in mətbuat xidmətinin Quba regional qrupundan verilən məlumata görə, polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, zərərçəkmişə məxsus obyektdən 2580 manat pul və 4 ədəd bank kartının oğurlandığı müəyyən edilib.

Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində əməli törətməkdə şübhəli bilinən həmin kafenin işçisi Şirvan şəhər sakini, əvvəllər məhkum olunmuş Bayraməli İsmayılov saxlanılıb. Faktla bağlı Quba RPŞ-də cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə həmin şəxsin barəsində həbs qətimkan tədbiri seçilib.


*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000